22 sentyabr 2023 №70 (2039)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qardaş dövlətlər daim bir-birinin yanındadır

Sentyabrın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı lokal xarakterli antiterror tədbirlərinin başa çatması və Azərbaycanın Qarabağ bölgəsində olan qanunsuz silahlı birləşmələrin silahı yerə qoymaları və tərk-silah olmaları barədə fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqlarını vurğulayıblar.

Azərbaycan və Türkiyə prezidentləri qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən gələcək təmaslar və strateji müttəfiqlik əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

## Qarabağın erməni sakinlərinə humanitar yardım göstəriləcək

### Yevlaxda ilk görüş konstruktiv keçib...



Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov Qarabağın erməni sakinlərinin təmsilçiləri qismində Sergey Martirosyan və David Melkumyan ilə görüşüb.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının açıqlamasında bildirilir.

Qeyd olunur ki, konstruktiv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb. Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib.

Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb.

Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər.

Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov da görüşdə iştirak ediblər. Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb.

Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

# Azərbaycan Qarabağda suverenliyini tam bərpa edir

## Prezident: "Erməni icması üçün tarixi şans yaranıb, o şansı əldən verməsinlər..."

2020-ci ilin 44 günlük müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində, Rusiya sülhməramlılarının müvəqqəti çətiri altında qalan və bundan gen-bol yararlanaraq ipə-sapa yatmayan qondarma rejimin anladığı dil bu imiş...



Sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı və 24 saat yetdi ki, hərbi-kriminal xunta, nəhayət, otuz ildən çoxdur sürən röyadan ayılsın. Üç il əvvəl Ermənistanın torpaqlarımızdakı işğalçı ordusu 44 günün tamamında kapitulyasiya etmişdi, onun Qarabağda qalan tör-töküntü "ordusu" isə bircə gün tab gətirə bildi...

Müdafiə Nazirliyindən verilən məlumata görə, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

***

Sentyabrın 20-də, Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirləri başa çatandan sonra Prezident İlham Əliyev xalqa müraciət etdi. Dövlət başçısı 24 saatlıq anterror əməliyyatı öncəsi və sonrası vəziyyəti ətraflı şəkildə diqqətə çatdırdı. Gəlinən nəticə isə hər kəsə aydındır: Azərbaycan, nəhayət, Qarabağda suverenliyini tam bərpa edir.

"...Antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir. Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir".

davamı səh. 2-də

## Milli kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur

Bu il M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyidir. Prezident İlham Əliyev 24 iyun 2023-cü il tarixində, ölkənin mədəni-ictimai həyatında rolunu və kitabxana işinə töhfələrini nəzərə alaraq, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd olunması haqqında sərəncam imzalayıb. Sərəncamda Mədəniyyət Nazirliyinə Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi münasibətilə 20-21 sentyabr tarixlərində "Milli kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.




Sentyabrın 20-də öncə tədbir iştirakçıları Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, Şəhidlər xiyabanında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canlarını qurban vermiş Vətən övladlarının əziz xatirəsi ehtiramla yad ediblər.

Milli Kitabxananın foyesində təşkil olunan konfrans himnimizin səslənməsi ilə başlayıb. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan Milli Kitabxanası haqqında qısa sənədli film nümayiş olunub.

Milli Kitabxananın direktoru Kərim Tahirov beynəlxalq elmi-praktik konfransın plenar iclasını açıq elan edib.

Mədəniyyət naziri Adil Kərimli Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi münasibətilə kitabxananın əməkdaşlarına təbriklərini çatdırıb. Kitabxanaların dünya mədəniyyətinin təbliğində böyük rol oynadığını söyləyən nazir deyib: "Ötən əsrin 90-cı illərinin sonlarında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasət öz nəticələrini verməyə başlamış, həmçinin mədəniyyət sahəsinə diqqət və qayğısının nəticəsi olaraq Milli Kitabxananın fəaliyyətində nəzərəçarpacaq irəliləyişlər özünü göstərmişdir. Bu gün Milli Kitabxana xalqımızın Ümummilli lideri Heydər Əliyevin mədəniyyət siyasətini böyük uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində özünün çiçəklənmə dövrünü yaşayır və günü-gündən inkişaf edərək, dünyanın ən modern kitabxanalarının sırasına daxil olmuşdur".

davamı səh. 3-də

## Azərbaycanın xalça motivləri Vyanada rəsm sərgisində

Vyanada Beynəlxalq Mədəni Müxtəliflik Təşkilatının (ICDO) təsis etdiyi "Mədəniyyətlərarası bağlılığın uzun gecələri" mədəniyyət festivalı keçirilir.

Sentyabrın 24-dək davam edəcək festival çərçivəsində Vyanada Yunus Əmrə İnstitutunda "İqlim dəyişikliyi və dayanıqlılıq" mövzusunda rəsm sərgisi açılıb. "Dayanıqlı müxtəliflik" adlı sərgidə 20-dən artıq ölkədən müxtəlif rəsm əsərləri ilə yanaşı, UNESCO-nun mədəni irs siyahısına aid olan sənət nümunələri, instalyasiyalar – 30-dan çox rəssamın əsəri nümayiş olunub.

İqlim dəyişikliyi, dayanıqlılıq və müxtəliflik arasındakı əlaqəni vurğulayan sərgidə Azərbaycan nümayəndəsi Yeganə Azadovanın xalça motiv və elementlərinin əks olunduğu əsərləri də yer alıb. Tablolarda xalçaçılıq Azərbaycan xalqının milli və təbii resurslara söykənən dayanıqlı əl sənəti ənənəsi kimi önə çəkilir.



## Müəllimlərin işə qəbulu üzrə müsahibənin nəticələri bəlli olub

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 5-12 sentyabr tarixlərində keçirilmiş uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinin nəticələri elan olunub.

Müsahibə mərhələsində iştirak etmək üçün Mədəniyyət Nazirliyi tərəfindən elan olunan vakant vəzifələrə qeydiyyatdan keçən 488 namizəddən 456-sı imtahanda iştirak edib. Onlardan 246 nəfər tələb olunan keçid balını toplayıb, 147 nəfərin uyğun hesab edildikləri vəzifələrə təyinatları ilə bağlı qərar qəbul olunub. 99 nəfər isə ehtiyat kadrlar siyahısına daxil edilib.

Müsabiqənin müsahibə mərhələsinin nəticəsindən narazı olan namizədlər şikayətlərinə baxılması məqsədilə 25 sentyabr 2023-cü il saat 17:00-dək apellyasiya@culture.gov.az elektron poçt ünvanı vasitəsilə nazirliyin Apellyasiya Şurasına müraciət edə bilərlər.

Müsahibənin nəticələri barədə daha ətraflı https://bit.ly/46ng9Ft linki vasitəsilə tanış olmaq mümkündür.

Qeyd edək ki, uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər iddia etdikləri müvafiq vəzifələrə təyin olunmaları məqsədilə 30 sentyabr 2023-cü il tarixinədək uyğun hesab edildikləri məktəblərə yaxınlaşaraq qeydiyyatdan keçməlidirlər.

Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək namizədin müvafiq vəzifəyə yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək.

SABAH-ın "arşınmalçıları" səhnədə



səh. 3

Səudiyyə Ərəbistanı ilə mədəni əlaqələrin perspektivləri müzakirə olunub

səh. 3



Üzeyir Hacıbəyli festivalında rəsm sərgisi

səh. 5

# Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub

Sentyabrın 21-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.




İlham Əliyev sentyabrın 20-də Qarabağda Rusiya sülhməramlı kontingentinin hərbi qulluqçularının faciəli şəkildə həlak olması ilə bağlı üzrxahlıq ifadə edib və dərin hüznlə başsağlığı verib. Başverənlərlə bağlı hərtərəfli araşdırma aparılacağı və bütün təqsirkarların layiqli cəzalarını alacağı vurğulanıb. Bununla bağlı hər iki ölkənin Baş prokurorluqları sıx əlaqədədir. Azərbaycan Prezidenti, həmçinin həlak olanların ailələrinə maddi yardım göstərilməsinə hazır olduğunu bildirib.

Tərəflər Qarabağda hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Rusiya sülhməramlı kontingentinin köməyi sayəsində əldə edilmiş razılaşmaların ardıcıl həyata keçirilməsinin vacibliyini qeyd ediblər. Bu kontekstdə sentyabrın 21-də Yevlax şəhərində Rusiya sülhməramlı kontingentinin iştirakı ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri və Qarabağın erməni əhalisi arasında başlayan təmaslara böyük əhəmiyyət verilir.

Regionda vəziyyətin daha da sabitləşdirilməsi və humanitar problemlərin aradan qaldırılması üzrə prioritet addımlar müzakirə edilib. Vladimir Putin Qarabağın erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb. Azərbaycan tərəfinin Rusiya sülhməramlıları ilə bu məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazır olduğu təsdiqlənib.

2020-2022-ci illərdə yüksək səviyyədə əldə edilmiş məlum üçtərəfli razılaşmaların fonunda aparılan danışıqlar prosesində, ilk növbədə, nəqliyyat əlaqələrinin açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanması üzrə işlərin fəallaşdırılması razılaşdırılıb.

# Sülh müqaviləsi üzrə prosesi irəli aparmaq üçün zəmin yaranıb

Sentyabrın 20-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı regiondakı vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin 19 sentyabrda terror aktları törətdiklərini, nəticədə polis əməkdaşlarının və mülki şəxslərin həlak olduğunu bildirib, buna cavab olaraq Azərbaycanın lokal xarakterli antiterror tədbirləri görməli olduğunu qeyd edib.

Dövlətimizin başçısı antiterror tədbirlərinin dayandırılması ilə bağlı əldə edilmiş razılaşmaya toxunaraq, Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çıxarılmasının, qanunsuz silahlı dəstələrin silahı yerə qoymasının və tərk-silah edilməsinin, Qarabağ ermənilərinin nümayəndələri ilə görüşün (20 sentyabrda Yevlaxda keçirilib – red.) müsbət addım olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, görüşün məqsədi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağ ermənilərinin hüquqları və öhdəlikləri ilə əlaqədar, o cümlədən onların mədəni, dini, bələdiyyə və digər hüquqları ilə bağlı məsələləri müzakirə etməkdir.

Azərbaycan Prezidenti regional sülh gündəliyinin dəstəklənməsinin əhəmiyyətinə toxunub, birtərəfli addımların atılmasının tamamilə əks effekt yarada biləcəyini deyib. Dövlətimizin başçısı vurğulayıb ki, əldə edilmiş nəticələr Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqların da irəli aparılmasına müsbət təsir göstərəcək.

Avropa İttifaqı Şurasının Prezidenti antiterror tədbirlərinin dayandırılmasını müsbət hal kimi qiymətləndirib, atəşkəs rejiminin təmin olunacağına ümidvarlığını ifadə edib. Şarl Mişel, həmçinin Yevlaxda keçiriləcək görüşü də müsbət dəyərləndirib.

# Qarabağın erməni sakinlərinin reinteqrasiya planı hazırdır

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən göndərilən dəvətdən, əfsus ki, separatçı rejim tərəfindən imtina edilirdi.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bunu sentyabrın 20-də Xarici İşlər Nazirliyində Bakıda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün brifinqdə deyib.

O qeyd edib ki, Qarabağın erməni sakinlərinin sosial-iqtisadi inteqrasiyası Azərbaycanın daxili məsələsidir.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Qarabağın erməni sakinlərinin geniş formada sosial-iqtisadi inteqrasiyası üçün plan hazırdır və bu, aidiyyəti qurumlarla hazırlanıb.

# Sülhməramlıların həlak olması ilə bağlı istintaq aparılır

Sentyabrın 20-də Azərbaycan Respublikasının Tərtər rayonunun Canyataq kəndi ərazisində lokal xarakterli antiterror tədbirlərində iştirak edən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu tərəfindən mürəkkəb relyef və dumanlı-yağışlı hava şəraiti səbəbindən qanunsuz erməni silahlı birləşmələrinə məxsus olduğu zənn edilərək Rusiya Federasiyasının sülhməramlı kontingentinin (RSK) həmin əraziyə dislokasiya olunmuş hərbi qulluqçularının olduğu avtomobil odlu silahlarla atəşə tutulub. Hadisə nəticəsində RSK-nın beş hərbi qulluqçusu həlak olub.

Bu barədə Baş Prokurorluğun məlumatında bildirilir. Məlumatda qeyd olunur ki, bundan başqa, həmin gün sözügedən yaşayış məntəqəsinin ərazisində RSK-ya məxsus "Kamaz" markalı avtomobil qanunsuz erməni silahlı birləşmələrinin naməlum üzvləri tərəfindən odlu silahlarla atəşə tutulub. Hadisə nəticəsində RSK-nın 1 əsgəri ölüb, 1 nəfər hərbi qulluqçu isə yaralanıb.

Hər iki faktla bağlı cinayət işi başlanıb və istintaq aparılır.

# Azərbaycan Qarabağda suverenliyini tam bərpa edir

## Prezident: "Erməni icması üçün tarixi şans yaranıb, o şansı əldən verməsinlər..."

əvvəli səh. 1-də

### Düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir

"...Aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində, düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır. Onu da bildirməliyəm ki, Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır. Halbuki dəfələrlə həm Ermənistan rəhbərliyi ilə təmaslar əsnasında, eyni zamanda, beynəlxalq tədbirlərdə yüksək kürsülərdən mən dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etmişdim. 10 noyabr üçtərəfli Bəyanatı, əslində, Ermənistan dövlətinin kapitulyasiya aktı idi və bu kapitulyasiya aktına görə Ermənistan Azərbaycan ərazilərindən bütün silahlı qüvvələrini çıxarmalı idi. Ancaq bundan imtina edirdi.

Əməliyyatın uğurlu gedişatı təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə, sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.

Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi,





öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi...".

### Qarabağdakı erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək

"İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də, nəhayət, rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar...".

"...Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq... Biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq... Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!

Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir".

### Azərbaycanla Ermənistan arasında sülh region üçün yeni səhifə açacaq

"Ermənistan bu dövr ərzində – dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək.

Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər – nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik.

Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!".

# "Ruhun tellərində"

## Üzeyir Hacıbəyli festivalının növbəti konserti




Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı (18-28 sentyabr) davam edir.

Sentyabrın 20-də festival çərçivəsində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında "Ruhun tellərində" adlı konsert təşkil edildi.

Gecənin tamaşaçıları arasında Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər vardı.

Konsertdə Əməkdar artistlər İnarə Babayeva (vokal, soprano), Şəhla Əlizadə (arfa) və musiqiçi Şeyda Əliyeva (fleyta) çıxış etdilər.

Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından "Gülçöhrənin ariyası" və "Qızların xoru", "Sənsiz" romansı, F.Əmirovun "Ulduz", S.İbrahimovanın "Dağ küləyi", eləcə də V.Bellini, F.Şubert, E.Qriq, D.H.Conant, L.Delibes və başqa bəstəkarların əsərləri və "Səndən mənə yar olmaz" xalq mahnısı səsləndirildi.

Bütün çıxışlar alqışlarla qarşılandı.

**N.Məmmədli**

# Milli Konservatoriyada musiqi axşamı

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində daha bir konsert sentyabrın 21-də Azərbaycan Milli Konservatoriyasında (AMK) Dövlət Nəfəs Alətləri Orkestrinin (bədii rəhbər-direktor Əməkdar incəsənət xadimi Əlibala Rzayev) ifasında təqdim olundu.



Əvvəlcə səhnəyə çıxan AMK-nın rektoru Xalq artisti Siyavuş Kərimi Azərbaycan Silahlı Qüvvələrinin 19-20 sentyabrda Qarabağdakı qanunsuz hərbi birləşmələrə qarşı apardığı antiterror tədbirləri zamanı qazanılan qələbədən danışdı, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçən Vətən övladlarına rəhmət, qazilərə şəfa dilədi.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi Nəzəriyyə şöbəsinin müəllimi, musiqişünas Nərgiz Kərimova dahi bəstəkar Üzeyir Hacıbəylinin zəngin yaradıcılığından söz açdı.

Sonra konsert proqramı təqdim olundu.

Proqramda Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" və "Cəngi", "Arazbarı", "Arşın mal alan" operettasından "Uvertüra", F.Əmirovun "Aşıqsayağı", Oqtay Zülfüqarovun "Bayram uvertürası", T.Quliyevin "Görüş" kinofilmindən "Vals", Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət "Fantaziya", Polad Bülbüloğlunun "Şən Azərbaycan", Müslüm Maqomayevin "Azərbaycan" (solist Mahir Tağızadə) və Q.Qarayevin "Azərbaycan marşı" əsərləri səsləndirildi.

Orkestrin məharətli və ahəngdar çıxışını musiqisevərlər gur alqışlarla qarşıladılar.

**Nurəddin**

# Milli kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur

## Azərbaycan Milli Kitabxanasının 100 illiyi münasibətilə beynəlxalq elmi-praktik konfrans

əvvəli səh. 1-də

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva 100 illik yubiley münasibətilə Milli Kitabxananın əməkdaşlarını təbrik edib. O, kitabxana işçilərini mədəniyyətimizin qoruyucuları adlandırıb, ölkəmizdə kitaba, kitabxanaya verilən xüsusi dəyərdən danışıb. Natiq Azərbaycanda kitabxana ənənələrinin qədimliyindən bəhs edərək, eyni zamanda Abbasqulu ağa Bakıxanovun şəxsi kitabxanasının Sankt-Peterburq kitabxanasında qorunduğunu da vurğulayıb.

Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda da həmkarı Kərim Tahirova və Milli Kitabxananın bütün kollektivinə əlamətdar yubiley münasibətilə təbrik sözlərini ifadə edib.

Milli Məclisin deputatı akademik Nizami Cəfərov ölkəmizdə kitabxanalara milli şərəfimiz kimi baxıldığını söyləyib, kitabxanaları tarixi coğrafiya adlandırıb. O, Milli Kitabxananın xalqımızın intellektinin formalaşmasındakı rolundan danışıb, kitabxananın biblioqrafiyalaşdırma sahəsindəki, milli biblioqrafik repertuarımızın yaradılmasında əhəmiyyətini qeyd edib.

Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsinin təkcə kitabxanaçılar üçün deyil, həmçinin bütün oxucu nəsli üçün də əlamətdar olduğunu bildirib.

Roma Mərkəzi Milli Kitabxanasının direktoru Stefano Campagnolo konfransda iştirak üçün dəvətə görə minnətdarlığını bildirib, kitabxanaları məbədgah adlandırıb.

Konfrans plenar iclaslarla davam edib.

Azərbaycan Milli Kitabxanasının direktor müavini tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova "Azərbaycan Milli Kitabxanası Azərbaycan xalqının mənəvi yaddaşının qoruyucusudur", Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda "Kitabxanaların fəaliyyətinin strateji istiqamətləri", Roma Milli Mərkəzi Kitabxanasının direktoru Stefano Campagnolo "Yeni üfüq. Milli kitabxanaların gələcəyi necədir?", Qətər Milli Kitabxanasının direktoru Tan Huism "Toplayın, qoruyun və məşğul olun: Qətər Milli Kitabxanasının təcrübələri" mövzularında çıxış ediblər.

Martynas Majvydas adına Litva Milli Kitabxanasının direktoru Renaldas Gudauskasın "Litva Milli Kitabxanası yaradıcı prosesdə", Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasının direktoru Əməkdar mədəniyyət işçisi Mayıl Əhmədovun "Cəmiyyətin informasiya təminatında milli kitabxanaların rolu" və M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Kuzminin "Kitabxana mədəniyyətlərarası dialoqun mərkəzi kimi" mövzularında çıxışları da dinlənilib.





Daha sonra Azərbaycan Milli Kitabxanasının Pakistan, Rusiya, Litva Milli Kitabxanaları, Roma Mərkəzi Milli Kitabxanası və Makedoniyanın Kliment Ohrid Universiteti və Milli Kitabxanası ilə qarşılıqlı əməkdaşlığa dair memorandumların imzalanma mərasimi keçirilib.

Qonaqlar yubiley münasibətilə hədiyyələrini Milli Kitabxanaya təqdim ediblər.

Konfrans iştirakçıları "Milli Kitabxananın "qızıl fondu"ndan", "Milli musiqi xəzinəmizdən" və "Milli Kitabxananın nəşrləri" adlı kitab sərgilərinə də baxıblar.

***

Sentyabrın 21-də Milli Kitabxananın zalında beynəlxalq konfrans işini davam etdirib.

Tədbir çərçivəsində Avrasiya Kitabxanalar Assambleyasının növbəti toplantısı keçirilib.

Özbəkistan Milli Kitabxanasının direktoru, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) vitse-prezidenti Umida Teşabayevanın "Mərkəzi Asiya ölkələrinin sərhədyanı ərazilərindəki kitabxanaların qarşılıqlı əlaqəsi" mövzusunda məruzəsi dinlənilib.

Belarus Milli Kitabxanasının direktoru Vadim Gigin, B.N.Yeltsin adına Prezident Kitabxanasının baş direktoru Yuri Nosov, Udmurt Respublikası (RF) Milli Kitabxanasının direktoru Tatyana Tensina və Rusiya Milli Kitabxanasının baş direktoru Vladimir Qronski BAE üzvü olan kitabxanaların 2023-cü ilin ikinci yarısında tədbirləri barədə danışıblar.

Rusiya Dövlət Kitabxanasının baş direktoru, BAE-nin prezidenti Vadim Duda və M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Kuzmin digər məsələ – 2024-cü ildə A.S.Puşkinin anadan olmasının 225 illiyinin qeyd olunması çərçivəsində layihə və tədbirlərin hazırlanması ilə bağlı təkliflər veriblər.

Həmçinin 2025-ci ildə İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş BAE tədbirlərinin planı ilə bağlı təkliflər səsləndirilib, nəzərdə tutulan layihələr dəstəklənib.

Rusiya Dövlət İncəsənət Kitabxanası BAE-yə yeni üzv qəbul edilib, Rusiya Dövlət Kitabxanası Beynəlxalq şöbəsinin müdiri İrina Qayşun BAE-nin növbəti dörd ildə (2027-ci ilin sentyabrınadək) baş direktoru seçilib.

***

Sonda konfrans məruzələrlə davam edib. Kitabxana fondlarının formalaşdırılması, qorunması, bərpası, rəqəmsal biblioqrafiya, kitabxanaların modernləşdirilməsi, təcrübə mübadiləsi, ixtisasartırma, uşaq ədəbiyyatı, uşaqlarla iş kimi və s. məsələlərə dair Türkiyə Milli Kitabxanasının baş direktoru Taner Beyoğlu, Vatikan Kitabxanasının direktoru Mauro Mantovani, Bosniya və Herseqovina Milli və Universitet Kitabxanasının direktoru İsmət Ovçina, Qazaxıstan Milli Kitabxanasının direktoru Bakıtcamal Ospanova, M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktor müavini Maria Belokolenko, Moldova Respublikası Milli Kitabxanasının direktoru Elena Pintilei və başqa iştirakçıların məruzələri dinlənilib. Çıxışlar əsasında fikir mübadiləsi aparılıb.

İclasda həmçinin "Azərbaycan Milli Musiqi Kitabxanası" layihəsinin təqdimatı olub.

Bununla da konfrans işini başa vurub.

Sentyabrın 21-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan Milli Kitabxanasının 100 illiyinə həsr olunmuş konsert proqramı təqdim olunub. Tədbirdə beynəlxalq konfransın iştirakçıları da, yubileyə təşrif buyurmuş qonaqlar da iştirak ediblər.

# Bakının tarixi ilə bağlı nadir sənədlərin surətləri Milli Kitabxanaya təqdim edilib

**100 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanasına təqdim olunan hədiyyələr arasında Rusiyanın B.N.Yeltsin adına Prezident Kitabxanasında saxlanılan Bakının tarixi ilə bağlı unikal arxiv sənədlərinin surətləri də var. Bu barədə Rusiya Prezident Kitabxanasının mətbuat xidməti məlumat yayıb.**

Kitabxananın baş direktoru Yuri Nosov qeyd edib ki, sənədlər arasında Xəzər dənizinin XVII əsrdən başlayaraq XIX əsrin əvvəlinə qədərki dövrü əhatə edən nadir xəritələri, Bakı Quberniyasının XIX əsrə aid planları, o cümlədən Bakı şəhərinin və ona yaxın ərazilərin planları və digər materiallar var.

O bildirib ki, elektrikli tramvay və 1898-1900-cü illərdə Bakının işıqlandırılması planı xüsusi maraq kəsb edir. Bakıda hələ 1900-cü ildə işlənib hazırlanan və elektrik dartma qüvvəsi ilə işə düşən tramvay rabitəsinin inkişaf planları 20-ci illərdə icra edilib. 1924-cü il fevralın 8-də Bakı şəhərində SSRİ üzrə ilk elektrik tramvayı işə salınıb. Qeyd etmək lazımdır ki, Azərbaycan həm də SSRİ-də ilk elektrik dəmir yolunun vətənidir. 1926-cı ildə elektriklə işləyən Bakı-Sabunçu-Suraxanı dəmir yolu xətti işə salınıb.

Y.Nosov onu da diqqətə çatdırıb ki, milyondan artıq arxiv vahidinin saxlanıldığı Rusiya Prezident Kitabxanasının fondunda Rusiya dövlətçiliyinin, eləcə də vaxtilə SSRİ-nin tərkibinə daxil olan ölkələrin tarixinə aid kitablar və dövri nəşrlər, kino xronikası, fotoşəkillər, elmi-maarifləndirici filmlər, dissertasiya avtoreferatları, arxiv sənədləri və materialları rəqəmsal formada təqdim olunur.



Kitabxananın portalında "Rusiya-Azərbaycan: qarşılıqlı münasibətlərin tarixi" kolleksiyası ilə də tanış olmaq mümkündür. Bu kolleksiya Azərbaycanın diplomatik, ticarət və mədəni əlaqələri, qədim tarixə dair tədqiqatların inkişafı, habelə onun ərazisinin Rusiya İmperiyasının və Sovet İttifaqının tərkibinə daxil olduğu XIX–XX əsrlərə aid sənədləri əks etdirir.

# Festivala rəng qatan kino musiqiləri



**Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində sentyabrın 19-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Kinofilmlərdən musiqi" adlı konsert proqramı təqdim edilib.**

Proqram Azərbaycan kinosunun 125, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının 100 illiklərinə həsr olunmuşdu. Layihənin ideya müəllifi tanınmış vokalçı, Əməkdar artist Ramil Qasımovdur.

Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Xalq artisti Ənvər Sadıqovun "Qaytağı" ansamblının iştirakı ilə keçirilən konsertdən əvvəl Vətən uğrunda şəhid olan igid oğulların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra Azərbaycan kinosunun yaranma tarixi və kino musiqimiz haqqında məlumat verildi.

Əməkdar artist Ramil Qasımov Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Əsgərin ariyası"nı ifa etdi. İfaçı Üzeyir bəy dühasından, kino musiqimizin zənginliyindən, Azərbaycan kino musiqisində xüsusi adı olan bəstəkarlarımızdan söz açdı. Vokalçı daha sonra Xalq artisti Tofiq Quliyevin "Bəxtiyar" filmi üçün bəstələdiyi "Sevgilim" mahnısını səsləndirdi.

Konsert proqramı kino musiqiləri ilə davam etdi. "Arşın mal alan", "O olmasın, bu olsun", "Bəxtiyar", "Yenilməz batalyon", "Telefonçu qız", "Möcüzələr adası", "Dədə Qorqud", "Baladadaşın ilk məhəbbəti", "Yuxu", "Romeo mənim qonşumdur", "Görüş", "Əhməd haradadır?" və s. filmlərdən musiqilər təqdim edildi. Xalq artisti Fidan Hacıyeva, Əməkdar artistlər Lalə Məmmədova, İnarə Babayeva, Zamiq Hüseynov, ifaçılar Fatimə Cəfərzadə, Amil Həsənoğlu və digər solistlərin ifasında səslənən mahnılar alqışlarla qarşılandı.

**Lalə Azəri**

# Səudiyyə Ərəbistanı ilə mədəni əlaqələrin perspektivləri müzakirə olunub



**Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Səudiyyə Ərəbistanına səfər edib. Mədəniyyət nazirinin müavini Səadət Yusifovanın rəhbərlik etdiyi heyət UNESCO-nun Dünya İrs Komitəsinin 10-25 sentyabr tarixlərində Ər-Riyadda keçirilən 45-ci sessiyasına qatılıb.**

Səfər çərçivəsində nümayəndə heyəti Səudiyyə Ərəbistanının mədəniyyət nazirinin müavini Fəhd əl-Kənan ilə görüşüb.

Söhbət zamanı iki ölkə arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Bildirilib ki, ölkələrimizin rəhbərləri arasında mövcud olan səmimi dostluq münasibətləri əməkdaşlıq əlaqələrinin inkişafına da öz müsbət təsirini göstərir.

Nazir müavini Səadət Yusifova 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" təşəbbüsünə Səudiyyə Ərəbistanının dəstəyinin ölkəmizdə yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Dost ölkənin bu qlobal platforma çərçivəsində Azərbaycanda keçirilən ənənəvi Dünya Mədəniyyətlərarası Dialoq forumlarında fəal iştirakı qeyd olunub, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin önəminə diqqət çəkilib.

Görüşdə mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğu vurğulanıb, bu kontekstdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin iki ölkənin mədəni irsinin təbliğinə mühüm töhfə verəcəyi qeyd edilib.

Tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# SABAH-ın "arşınmalçıları" Üzeyir festivalında

**Həzin musiqi notlarını xatırladan qızılı payızlı Bakı dahi Üzeyir Hacıbəylinin adı ilə şərəflənən növbəti festivala ev sahibliyi edir. Zəngin proqramlı festival çərçivəsində növbəti sənət sovqatını gənclər verdilər. Bu da təsadüfi deyildi. Çünki bütün həyat və yaradıcılığı, pedaqoji fəaliyyəti boyunca istedadlı gənclərə yol açan, onlara hamilik və atalıq qayğısı göstərən Üzeyir bəyin ən böyük amalı peşəkar nəsil sayəsində musiqi sənətimizin daha da inkişafı idi.**

Sentyabrın 20-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında gerçəkləşən sənət axşamına "Üzeyir sənətinin gənclik sədaları" adı verilmişdi.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "SABAH" qrupu dahi bəstəkarın "Arşın mal alan" musiqili komediyası ilə bir araya gəlmişdi.

Tamaşanın quruluşçu rejissorları Xalq artisti Mehriban Zəki, aktyor-pedaqoq Ceyhun Dadaşov, bədii rəhbər və dirijoru Dmitri Babayev idi. "SABAH" xoru ilə başlayan tamaşada Fərid İsmayılov (Əsgər), Nəzrin Əliyeva (Gülçöhrə), Nihat Aslanlı (Soltan bəy), Əsmər Həbibli, Hilal Məmmədzadə (Süleyman), Gülçin Qasımova (Asya), Səbinə Qasımova (Telli), Ülvi Qasımov (Vəli) və Ülviyyə Qarayeva (Sevgi mələyi) iştirak edirdilər.

Həyəcanla gözlənilən nümayişdən əvvəl çıxış edən Mehriban Zəki sözünə Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanları yad etməklə başladı. Xalq artisti istedadlı və teatra bağlı yetirmələrinin bir araya gəldiyi layihə barədə məlumat verdi. Bildirdi ki, tamaşanın premyerası bu ilin mayında Naxçıvanda – Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş SABAH İncəsənət Festivalı (24-26 may) çərçivəsində də olub.



Sonra səhnə onların – həyəcanlı gənclərin, istedadlı tələbələrin, gələcəyin aktyor və musiqiçilərinin ixtiyarına verildi.

Bildiyim qədər, tələbə aktyorların ilk tamaşası BMA-nın xor üzrə qrupunun da ilk səhnə həyəcanı idi. Bu sevinc və həyəcanın verdiyi emosionallıq üzlərindən də oxunurdu.

Sadə tərtibatlı və mümkün olduğu qədər müasir təsvir verilmiş tamaşada hadisələrin nəqlində məxsusi yanaşma – komediya ilə təsvirin rəngarəng sintezi hiss olunurdu. Gənclər musiqili teatr sənətimizin klassik və hamımıza yaxşı tanış olan nümunəsini hiss edib anladıqları kimi göstərməyə can atırdılar. Buna görə də ifaları maraqlı və baxımlı alınmışdı...

**Həmidə**

# Naxçıvanda mədəniyyət və turizmlə bağlı geniş spektrli işlər görüləcək

## Sosial-iqtisadi inkişafa dair Dövlət Proqramının təfsilatlı tədbirləri müəyyən olunub

Naxçıvan Muxtar Respublikasında UNESCO-nun siyahısına salınmaq üçün təqdim ediləcək tarixi-memarlıq abidələri müəyyənləşdiriləcək.



Bu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında qeyd olunub.

Baş nazir Əli Əsədov tərəfindən müvafiq sərəncam sentyabrın 15-də imzalanıb.

Plana əsasən, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə birgə 2023-2024-cü illərdə Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin inventarlaşdırılması və pasportlaşdırılması işini həyata keçirməlidir.

İnventarlaşdırılmış abidələrin UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına salınması istiqamətində işlərin aparılması, eləcə də İlkin Siyahıya düşən abidələr arasından Dünya İrs Siyahısına salınacaq abidələrin nominasiya faylının hazırlanıb UNESCO-ya təqdim edilməsi 2024-cü ilə nəzərdə tutulub.



Planda muxtar respublika ərazisində mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və sahənin inkişafı ilə bağlı işlər də əks olunub. Buraya tarix-mədəniyyət qoruqlarının mövcud fəaliyyətinin təhlili və inventarlaşdırılması, muzey müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi; Ordubad şəhərinin qədim məhəllələrini əhatə edən ərazidə dövlət tarix-mədəniyyət qoruğunun yaradılması ilə bağlı müvafiq normativ hüquqi aktların hazırlanması; Xan sarayı, Möminə xatın türbəsi, Qızlar bulağı, Yay teatrı, Bazarçayı gölü, Köhnə bazar və karvansaranın daxil olduğu tarixi abidələrin bazasında "Naxçıvanın 7 incisi" Tarix-Memarlıq Turizm Kompleksinin yaradılması, həmin abidələrin bərpası və ərazinin abadlaşdırılması ilə bağlı layihələndirmə işlərinin aparılması daxildir. Həmçinin Naxçıvan Dövlət Filarmoniyası, Naxçıvan Dövlət Uşaq Filarmoniyası, Naxçıvan Dövlət Kukla Teatrı və Naxçıvan Dövlət Uşaq Teatrı üçün yeni binaların tikintisi ilə bağlı layihə sənədlərinin hazırlanması, Naxçıvan şəhərində Muzey Mərkəzinin tikintisi, Naxçıvan Muxtar Respublikasının mədəniyyət müəssisələrində həyata keçirilən tədbirlər üçün onlayn platformalarda bilet satışının təmin edilməsi kimi işlər də qeyd olunub.

Bundan əlavə, regionda turizmin inkişafı istiqamətində Batabat gölünün yaxınlığında və Ordubadda Tematik parkların yaradılması, Ağbulaq massivində qiymətləndirmə işlərinin aparılması, yay-qış turizm kompleksinin yaradılması imkanının araşdırılması, Naxçıvan Muxtar Respublikasının Turizm Atlasının hazırlanması, Batabat Astrofizika Rəsədxanası üçün tematik turistik mərkəzin tikintisi, dağ cığırları əsasında piyada marşrutlarının yaradılması, Naxçıvan Muxtar Respublikasına xarici tur operatorlarının səfərinin təşkili nəzərdə tutulur.

# Vətən fədailəri unudulmur

Cəlilabad rayonunun Əsədli kəndində şəhid gizir Səid Həsənovun anım günündə ev-muzeyinin açılışı olub. Çıxışlarda qəhrəman övladlar böyütdüklərinə görə şəhidin valideynlərinə təşəkkür edilib, cəmiyyətimizin hər zaman şəhidlərin ailə üzvlərinin yanında olacağı diqqətə çatdırılıb.



Qeyd edək ki, Vətən müharibəsində iştirak etmiş Səid Həsənov ötən ilin sentyabrın 12-də Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhidlik zirvəsinə yüksəlib.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən Vətən müharibəsinin şəhid çavuşu Orxan Mirzəyevin anım gününə həsr olunmuş "Vətən fədailəri unudulmur" adlı tədbir keçirilib. Qeyd olunub ki, Orxan Mirzəyev 1993-cü il sentyabrın 15-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub. Vətən müharibəsində Füzuli və Şuşanın azadlığı uğrunda döyüşlərdə iştirak edib. Noyabrın 7-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***



Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Xidmət şöbəsində Vətən müharibəsi şəhidləri Rəşad Ələkbərov və Rəşad Məmmədovun ailələri ilə görüş təşkil edilib. Çıxışlarda Ordumuzun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqdan, şəhidlərlə bağlı xatirələrdən söz açılıb. Daha sonra şəhidlərə həsr olunmuş videoçarx nümayiş olunub.

# Müasir inkişafımızın banisi

Ağdam rayon Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi" tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda dəyirmi masa keçirilib. Çıxışlarda qeyd olunub ki, 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə müstəqil dövlətimizin neft strategiyası və doktrinasının əsası qoyulub. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərdi, dövlət müstəqilliyinin mühüm təminatına çevrildi.

***

Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialı "Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda tədbir təşkil edib. Qeyd olunub ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli təhsil strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarda tədris ocaqlarının maddi-texniki bazalarının ildən-ilə möhkəmləndirildiyi, təhsildə qazanılan uğurlar diqqətə çatdırılıb.

***





Cəbrayıl rayon MKS və Cəbrayıl rayon üzrə Gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə rayon Mərkəzi Kitabxanasında (Biləsuvar rayonu) "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı tədbir keçirilib. Tədbirdə Ümummilli liderin mədəniyyət və incəsənət xadimləri ilə görüşlərindən bəhs edən videoçarx nümayiş etdirilib.

***

Lerik rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları "Heydər Əliyev İli" münasibətilə şəhər 3 saylı tam orta və Anbudərə kənd ümumi orta məktəblərində olublar. Mərkəzin əməkdaşları şagirdlərə Ulu öndər Heydər Əliyevin dövlətçilik irsi haqqında geniş məlumat veriblər. Qeyd edilib ki, bu gün əldə olunan bütün uğurlarda Heydər Əliyevin möhkəm təməlini qoyduğu siyasi kurs, inkişaf strategiyası dayanır. Bu siyasi kurs Azərbaycanı daha böyük uğurlara aparır.

Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Gənclərə Ümummilli lider Heydər Əliyevin örnək həyat yolu haqqında geniş məlumat verilib, həmçinin gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

# Mədəniyyətimizin əbədiyaşar dahisi

## Bölgələrdə "Üzeyir musiqi günü"

Quba rayon Heydər Əliyev Mərkəzində, Quba, Xaçmaz, Xudat, Şabran, Siyəzən şəhər uşaq musiqi və incəsənət məktəblərində 18 sentyabr – Milli Musiqi Gününə ("Üzeyir musiqi günü") həsr edilmiş tədbir və konsert proqramları təşkil edilib.

***

Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində konsert təşkil olunub. Çıxışlarda qeyd edilib ki, Ü.Hacıbəylinin musiqi mədəniyyətimizdə yaratdığı ənənələr onun yetirmələri tərəfindən yaşadılıb. Konsertdə müəllim və şagirdlər dahi bəstəkarın əsərlərini ifa ediblər.

Regional idarənin tabeliyindəki digər mədəniyyət müəssisələrində də əlamətdar günlə bağlı tədbirlər keçirilib.

***









Əlamətdar gün münasibətilə Mil-Muğan RMİ-nin təşkilatçılığı ilə konsert proqramı keçirilib. Sabirabad Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından danışıb. Tədbir Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbinin konsert proqramı ilə davam edib.

***

Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbində 18 sentyabr "Milli musiqimiz" adlı tədbir keçirilib. Ü.Hacıbəylinin zəngin yaradıcılığı haqqında geniş məlumat verilib, bəstəkarın əsərlərinin əbədiyaşarlığı qeyd olunub. Şagirdlərin ifasında rəngarəng musiqi nömrələri təqdim edilib.

***

Şəki şəhər Heydər Əliyev mərkəzində konsert proqramı təşkil edilib. Müəllim və şagirdlər tərəfindən dahi bəstəkar Üzeyir Hacıbəylinin əsərlərindən nümunələr təqdim olunub.

Tədbirlərdə Ü.Hacıbəylinin həyat və yaradıcılığı, 2009-cu ildən ənənəvi olaraq gerçəkləşən beynəlxalq musiqi festivalı haqqında söz açılıb. Üzeyir bəyin əsərlərindən parçalar səsləndirilib.

***

Milli Musiqi Günü münasibətilə Qazax-Tovuz RMİ-nin tabe müəssisələrində tədbirlər, konsert proqramları təşkil olunub.

***

Lənkəran şəhər C.Cabbarlı adına 1 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə şəhərdəki Osman Mirzəyev adına qarışıq tipli uşaq evində tədbir keçirilib. Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncovun da iştirak etdiyi tədbirdə Milli Musiqi Gününün tarixindən söz açılıb. Tədbir Üzeyir bəyin əsərlərindən ibarət konsert proqramı ilə başa çatıb.

Masallı rayon Heydər Əliyev Mərkəzində şəhər İncəsənət məktəbi ilə birgə "Milli mədəniyyətimiz Heydər Əliyev ideyalarından bəhrələnir" adlı tədbir keçirilib. Üzeyir Hacıbəyli ilə başlayan bəstəkarlıq məktəbimizin Qara Qarayev, Niyazi, Fikrət Əmirov kimi korifeylərinə Heydər Əliyevin verdiyi yüksək dəyər və Ulu öndərin ümumilikdə mədəniyyət xadimlərinə qayğısından söz açılıb. Tədbir incəsənət məktəbinin konsert proqramı ilə davam edib.

**Hazırladı: N.Məmmədli**

# İşgüzar həyata hazırlıq – Masallıda təlim

Masallı rayon Heydər Əliyev Mərkəzində gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə "İşgüzar həyata hazırlıq təlimləri" layihəsi çərçivəsində gənclər üçün "Müsahibəyə hazırlıq" mövzusunda təlim keçirilib.



Masallı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Lənkəran-Astara regional nümayəndəliyi Masallı bölməsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə mərkəzin direktoru Dilbər İbayeva təlimin əhəmiyyətini qeyd edib.

Karyera məsləhətçisi Orxan Əliyevin keçdiyi təlimdə "Uğurlu müsahibənin sirləri", "Müsahibənin mərhələləri", "İşəgötürənin tələblərini necə qarşılayaq?" mövzularından danışılıb, komanda işləri və enercayzerlər icra edilib.

# Şəhid polislər torpağa tapşırılıb

Xəbər verdiyimiz kimi, sentyabrın 19-da yeni inşa edilən Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisindən keçən 58-ci kilometrliyində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərdəki qanunsuz erməni silahlı birləşmələrinin təxribat qrupu tərəfindən törədilən mina terroru nəticəsində Daxili İşlər Nazirliyinin dörd əməkdaşı həlak olub. Şəhid polislər sentyabrın 20-də dəfn ediliblər.







Polis serjantı Xəzər Zamanovun nəşi Bakıda yaşadığı evə gətirilib. Vida mərasimində sonra şəhid Günəşli qəsəbəsindəki qəbiristanlıqda dəfn olunub. Mərasimdə şəhidin ailəsi və yaxınları, rəsmilər, rayon sakinləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Polis əməkdaşları Asim Camalzadə və Ramil Şirinov Sumqayıtdakı Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimlərində Daxili İşlər Nazirliyinin əməkdaşları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, Milli Məclisin deputatları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Ramil Şirinovun tabutuna bükülmüş bayrağımız dayısına, Asim Camalzadənin tabutuna bükülmüş bayrağımız isə onun atasına təqdim olunub.

Polis serjantı Seymur Mahmudovla Binəqədi rayonunun Rəsulzadə qəsəbəsində vida mərasimi keçirilib. Mərhum Binəqədi qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində mərhumun yaxınları, rəsmi qurumların təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Sentyabrın 19-da Füzuli rayonunda ağır yol-nəqliyyat hadisəsində həlak olan polis əməkdaşlarının da dəfn mərasimləri keçirilib. Polis serjantı Ələsgər Əsgərov Naxçıvan şəhərinin Əliabad qəsəbə qəbiristanlığında dəfn olunub. Mərasimdə Naxçıvan MR Daxili İşlər Nazirliyinin əməkdaşları, rəsmilər, polisin ailə üzvləri və yaxınları iştirak ediblər. Ələsgər Əsgərovun nəşi yaylım atəşi və himnimizin sədaları altında torpağa tapşırılıb.

Polis əməkdaşı Rasim Məmmədovun nəşi Bakıda yaşadığı ünvana gətirilib. Onunla Xətai rayonu Cavanşir küçəsində yerləşən evində vida mərasimi keçirilib. Xəzər rayonu Şüvəlan kənd qəbiristanlığında dəfn olunub.

Seyfi Abdullayevin nəşi Şamaxı şəhərinə gətirilib. Şamaxı şəhər Cümə məscidində böyük izdihamla cənazə namazı qılındıqdan sonra mərhum rayonun Qaleybuğurd kənd qəbiristanlığında torpağa tapşırılıb. S.Abdullayevin sentyabrın 22-də, doğum günündə nişan mərasimi keçiriləcəkdi...

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

# Üzeyir Hacıbəyli festivalında rəsm sərgisi

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-28 sentyabr tarixlərində Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçirilir.





Bu il də zəngin proqramı olan festival çərçivəsində konsert proqramları, tamaşa nümayişləri, konfrans və digər tədbirlər təşkil olunur.

Sentyabrın 19-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Əməkdar incəsənət xadimi, tanınmış memar və rəssam Elturan Avalovun əsərlərindən ibarət sərginin açılışı da musiqi bayramının yaddaqalan tədbirlərindən oldu.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov çıxış edərək sənətkarı yeni sərgisi münasibətilə təbrik etdi yaradıcılıq uğurları arzuladı. Bildirdi ki, rəssam bu günlərdə 150-dən artıq əsərini nazirliyə təqdim edib.

Elturan Avalov sərginin təşkilinə görə minnətdarlığını bildirdi.

Qeyd etdi ki, sərgidə Üzeyir Hacıbəylinin musiqili komediyalarına və xalq mahnılarımıza çəkdiyi illüstrasiyalar, qrafik əsərlər nümayiş olunur.

50-yə yaxın əsərin yer aldığı sərgi tamaşaçılar tərəfindən maraqla qarşılandı.

**Lalə**

## Milli Dram Teatrı "Qarabağnamə"ni Şəkiyə aparacaq

Ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə Mədəniyyət Nazirliyinin həyata keçirdiyi silsilə tədbirlər çərçivəsində teatr kollektivlərinin regionlara qastrol səfərləri yeni mövsümdə də davam edir.

Aksiyanın məqsədi regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının keyfiyyətinin yüksəldilməsi, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır.

Qastrol səfərləri çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı sentyabrın 26-da "Qarabağnamə" tamaşası ilə Şəki Dövlət Dram Teatrında çıxış edəcək. Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Qeyd edək ki, bu günlərdə aksiyanın iştirakçısı kimi Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Qusarda, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı isə Lənkəranda qastrolda olub.

## Mərkəzi İncəsənət Məktəbində "Musiqimizin çıraqbanı"

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində 18 sentyabr – Milli Musiqi Günü münasibətilə "Musiqimizin çıraqbanı" adlı konsert keçirilib.




Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdən sonra tədbirin təşkilatçısı və aparıcısı, məktəbin nəzəriyyə ixtisası üzrə müəllimi, musiqişünas Nərgiz Kərimova dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuş şeirləri oxuyub, böyük musiqi xadiminin həyat və yaradıcılıq yolundan danışıb.

Sonra konsert proqramı təqdim olunub. Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra", "O olmasın, bu olsun" filmindən sitatlar səsləndirilib. Həmçinin şagird və müəllimlər tərəfindən "Koroğlu" operasından "Çənlibel" xoru, "Leyli və Məcnun" operasından "Mahur-hindi", "Sənsiz" romansı, "Arşın mal alan" operettasından "Gülçöhrənin naləsi", "Qızların xoru" və "Uzundərə" rəqsi ifa olunub. Konsertə bəstəkarın "Cəngi" əsəri ilə yekun vurulub.

Tədbirin sonunda məktəbin direktoru Əməkdar artist, dosent Əziz Qarayusifli konsertin ərsəyə gəlməsində zəhməti olanlara və tamaşaçılara təşəkkür edib.

## ABŞ-dən gələn musiqiçi-pedaqoqun BMA-da ustad dərsi

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalının fəxri qonaqlarından biri də tanınmış skripka ifaçısı, ABŞ-nin Qərbi Miçiqan Universitetinin müəllimi və Ruzvelt Universitetinin nəzdində İfaçılıq Sənəti Kollecinin Simli Alətlər kafedrasının müdiri professor İqor Fedotovdur.



Professor İ.Fedotov sentyabrın 19-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) tələbələr üçün ustad dərsi keçib.

BMA-dan bildirilib ki, İqor Fedotov tələbələrlə ifaçılıq sənətinin sirlərini bölüşüb, əsərlər üzərində texniki bacarıq qaydalarını izah edib, texniki çətinliklərin necə aradan qaldırılması yollarını göstərib.

Ustad dərsi müəllim və tələbə heyəti tərəfindən maraqla qarşılanıb.

## Məşhur balet artisti Bakı Xoreoqrafiya Akademiyasının qonağı olub

Xəbər verildiyi kimi, Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin Bakıda təqdimatını izləmək üçün müxtəlif ölkələrdən qonaqlar, tanınmış sənət adamları da gəliblər. Onların arasında Rusiyanın məşhur balet artisti, vaxtilə "Məhəbbət əfsanəsi"ndə Fərhad partiyasını ifa etmiş Nikolay Siskaridze də var.



Rusiyanın Xalq artisti, iki dəfə RF Dövlət mükafatı laureatı N.Siskaridze 1992–2013-cü illərdə Böyük Teatrın aparıcı balet artisti olub. O, 2014-cü ildən A.Y.Vaqanova adına Rus Balet Akademiyasının rektorudur.

Paytaxtımıza səfəri zamanı məşhur balet artisti Bakı Xoreoqrafiya Akademiyasının qonağı olub.

Akademiyanın rəhbərliyi ilə səmimi şəraitdə keçən görüşdə tədrisin səviyyəsinin qaldırılması məqsədilə tələbə-müəllim mübadiləsinin aparılması, ustad dərslərinin keçirilməsi, tədris proqramlarının təkmilləşdirilməsi və qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Daha sonra sinif otaqları və dərs zalları ilə tanış olan Nikolay Siskaridze BXA-nın tələbə və müəllimləri ilə görüşüb, klassik baletin incə məqamlarından bəhs edib.

Qonaq akademiyanın tələbə-müəllim heyətinə uğurlar arzulayıb. Sonda xatirə şəkilləri çəkdirilib.

# Bakıda bal rəqsləri üzrə dünya çempionatı keçiriləcək

26-29 oktyabr tarixlərində Bakıda bal rəqsləri üzrə dünya çempionatı keçiriləcək. Bu münasibətlə sentyabrın 19-da "JW Marriott Absheron" hotelində mətbuat konfransı təşkil edildi.

Tədbirin təşkilatçıları Azərbaycan Rəqs İttifaqının (AZDC) prezidenti Xalq artisti Təranə Muradova, təsisçisi və rəhbəri Olqa Krasnyanskaya olan "Smooth Rhythm Dance Style" şirkətidir. Çempionatda ölkəmizi beşqat dünya çempionları, Azərbaycanın Əməkdar idman ustaları Eldar Cəfərov və Anna Sajina da təmsil edəcək.

Mətbuat konfransında çıxış edən Təranə Muradova bildirdi ki, Dünya Rəqs İttifaqı Azərbaycanı qlobal əhəmiyyətli titul tədbirinə ev sahibliyi etmək üçün namizəd göstərib. Bu da səbəbsiz deyil. Çünki Azərbaycanda mədəniyyət və idmanın inkişafına xidmət edən irimiqyaslı proqram və layihələr həyata keçirilir. Beynəlxalq tədbirin Ulu öndər Heydər Əliyevin 100 illik yubiley ilində təşkil edilməsi isə xüsusilə əlamətdardır.




Olqa Krasnyanskaya diqqətə çatdırdı ki, müsəlman dünyasına ilk baletini bəxş edən, xalq rəqsləri, caz və klassik musiqidə özünəməxsus ənənələrə malik olan, böyük yarışlara ev sahibliyi edən Azərbaycanda bu layihə də uğurlar reallaşacaq.

Azərbaycan Rəqs İttifaqının katibi Sənan Hüseynli, təşkilatın vitse-prezidenti Cəmilə Verdiyeva, mütəxəssis İlham Osmanov, idman ustaları Eldar Cəfərov və Anna Sajina çempionatın əhəmiyyətindən söz açdılar. Bildirildi ki, təşkilatçıların missiyası Azərbaycanın mədəni dəyərlərini daha da gücləndirmək, ölkədə idman bal rəqsinin inkişafına dəstək olmaq, həm idman, həm də incəsənət elementlərini özündə cəmləşdirən, şəxsin mənəvi və fiziki inkişafının harmoniyasına imkan verən bal rəqsinin mahiyyətini təqdim etməkdir.

Qeyd olundu ki, dünyanın ən yaxşı cütlüklərinin iştirak edəcəyi çempionat uşaq, gənc və peşəkar rəqqaslar olmaqla 3 qrup üzrə keçiriləcək. 30-dan çox ölkədən 500-dən artıq iştirakçı qatılacaq. 37 kateqoriyada duet və solo ifalar təqdim olunacaq. Bu kateqoriyalara bal rəqsləri, Latın Amerikası rəqsləri, tanqo və s. daxildir.

Gecənin aparıcıları Latın Amerikası rəqsləri üzrə on dördqat dünya çempionu, Dünya Rəqs İttifaqının prezidenti Donnie Burns və teleaparıcı Leyla Quliyeva olacaq.

Festival ərəfəsində, oktyabrın 27-də beynəlxalq rəqs konqresi keçiriləcək. Çempionatın qaliblərinin iştirakı ilə gələn ilin yay aylarında Şuşada rəqs festivalının keçirilməsi də nəzərdə tutulur.

**Lalə Azəri**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (63)

### 1996-cı il 1 iyun

Prezident Heydər Əliyev Beynəlxalq Uşaqların Müdafiəsi Günü münasibətilə Respublika uşaq musiqi festivalı qaliblərinin Azərbaycan Akademik Dövlət Opera və Balet Teatrında keçirilən yekun konsertində nitq söyləyib.

*"Uşaqlar bizim gələcəyimizdir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çətin keçid mərhələsində daim çalışırıq ki, uşaqlarla əlaqədar olan məsələləri tez və yaxşı həyata keçirək. Məlumdur, biz bunların hamısına nail ola bilmirik. Səbəblərdən biri də Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasıdır... Biz bu ağır günlərdən çıxacağıq. Qaçqınlarımız çadırlardan, ağır vəziyyətdə yaşadıqları yerlərdən çıxacaq, doğma torpaqlarına qayıdacaqlar. Dünyaya yeni övladlarımız, körpələr gələcək. Həyat davam edir, davam edəcək...*

*...Əsrlərdən-əsrlərə xalqımız istedadlar yetiribdir. Bu gün də biz bu prosesin şahidiyik. Ölkəmiz nə qədər ağır vəziyyətdə yaşayırsa da, xalqımız öz mənəviyyatını, mədəniyyətini, musiqisini, rəqsini heç vaxt unutmayıbdır. Mədəniyyətimiz, incəsənətimiz, musiqimiz xalqımızı ən ağır dövrlərdə də gələcəyə inam ruhunda yaşadıb və bu gün də yaşadır.*

*Mayın 10-da gənc istedadlarla ilk görüşümdə bəyan etdim və bu gün bir daha təkrar edirəm: ölkəmizin gənc istedadları, istedadlı uşaqları bundan sonra Azərbaycan prezidentinin xüsusi qayğısı altında olacaqlar... İstedadı cəmiyyətə, xalqa göstərmək lazımdır, ona istedadını inkişaf etdirmək üçün kömək etmək, istedada yol açmaq lazımdır. Bu sahədə musiqi məktəbləri, respublikamızın mədəniyyət ocaqları, Mədəniyyət Nazirliyi, mədəniyyətlə məşğul olan təşkilatlarımız çox iş görürlər. Mən musiqi məktəblərinə, həmin məktəblərin kollektivlərinə və bütün mədəniyyət işçilərinə, gənc istedadlara qayğı göstərənlərin hamısına təşəkkürümü bildirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü konsert gələcək böyük konsertlərə yol açır, Azərbaycanın hər bir guşəsində, şəhərində, kəndində istedadlara qayğı göstəriləcək, onlara yol açılacaq...".*

***

"Oqonyok" jurnalının (Rusiya) Azərbaycana həsr olunmuş xüsusi nömrəsinin Azərbaycan Tarix Muzeyində keçirilən təntənəli təqdimat mərasimində nitq söyləyib.

### 1996-cı il 22 iyun

"Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərman imzalayıb. Fərmana əsasən, gənc istedadların "Qızıl kitab"ı, gənc istedadlar üçün xüsusi təqaüd təsis edilib.

Bakı İncəsənət Gimnaziyasının şagirdi Surxay Əsgərovun konsertində olub.

### 1996-cı il 2 iyul

Almaniyaya rəsmi səfəri zamanı Bonn şəhərində AFR Prezidenti Roman Hersoq ilə birlikdə Azərbaycanın məşhur rəssamı Səttar Bəhlulzadənin əsərlərinin sərgisinə baxıb.

### 1996-cı il 10 iyul

"Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun iştirakçılarına müraciət göndərib. Müraciətdə dünyanın bir çox səyyah və alimlərinin diqqətini cəlb etmiş Naxçıvan haqqında qaynaqlardakı məlumatların toplanıb tədqiq və nəşr olunmasının Azərbaycan tarixi üçün əhəmiyyəti vurğulanıb.

### 1996-cı il 15 iyul

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi münasibətilə Dərbənd şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə Füzulinin yaradıcılığı ilə bağlı qardaş Dağıstan alimləri tərəfindən də sanballı tədqiqat işlərinin aparılması təqdirlə qeyd olunub.

### 1996-cı il 22 iyul

Azərbaycan təsviri incəsənətinin inkişafında böyük xidmətlərinə görə Xalq rəssamı Maral Rəhmanzadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb.

Xalq rəssamı Maral Rəhmanzadəyə 80 illiyi münasibətilə təbrik məktubu göndərib.

### 1996-cı il 3 avqust

Azərbaycan Dövlət İncəsənət Muzeyində Xalq rəssamı Maral Rəhmanzadənin yubiley sərgisinin açılış mərasimində çıxış edib.

*"...Maral xanım öz sözünü rəsm əsərləri ilə deyir. Biri danışmaq, biri oxumaq-çalmaq, biri də rəsm çəkmək ustasıdır. Bu da təbiidir. Yubileyiniz münasibətilə mən Sizə təbrik məktubu göndərmişəm. "Şöhrət" ordeni ilə təltif edilmisiniz. Bir daha qeyd edirəm ki, yaratdığınız əsərlər Azərbaycan təsviri sənətinin zənginləşməsində böyük rol oynayıbdır. Bu minnətdarlığın ifadəsi olaraq yubiley sərginizin açılışına gəlmişəm.*

*...Mən o qədər də bilmirdim ki, Siz Naxçıvanın təbiətini belə gözəl əks etdirmisiniz... Naxçıvan elə bir yerdir ki, oraya gedib-qəlmək də çətindir, ona görə bunları görən də azdır. Xınalığı da çəkmisiniz. Bu da çox gözəldir. Azərbaycanın elə guşələri var ki, bunlar abidədir. Bir tərəfdən təbiət abidəsidir, ikinci tərəfdən də insanların dağlar qoynunda yaratdıqları evlər, yaşayış yerləri – bunlar da abidədir... Təəssüf ki, çox şey xarab olur. Güman edirəm, biz bu dövrü də keçib gedəcəyik, onlar da bərpa olunacaqdır... Yaxud Siz Lahıcın gözəlliyini göstərirsiniz. Lahıc özü də Azərbaycanın bir abidəsidir... O şeyi ki, rəssam görür, adi adam bəlkə də bunu dərk edə bilmir. Ona görə də Sizin yaradıcılığınızın bu xüsusiyyətini mən daha yüksək qiymətləndirirəm...".*

**Hazırladı: Vüqar Orxan**

*(davamı var)*

# Üzeyir Hacıbəylinin sevimli tələbəsi

Dünya şöhrətli bəstəkar, musiqişünas-alim, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyli böyük dramaturq, şair-mütəfəkkir Hüseyn Cavid ilə hələ gənclik illərindən tanış və dost olmuşdular. Bu iki mütəfəkkir sənətkarı bir-birinə bağlayan möhkəm dostluq və əqidə birliyi idi.

Cavid əfəndi ilə Üzeyir bəyin bacanağı, Azərbaycanın görkəmli maarif xadimi, repressiya qurbanlarından biri Pənah Qasımov qonşu olmuşlar. Onlar hazırda Hüseyn Cavidin Ev-Muzeyi yerləşən otaqlarda çox mehriban qonşu kimi yaşamışlar. Üzeyir bəy və digər bacanağı, bəstəkar Müslüm Maqomayev tez-tez Pənah bəygilə gələrdilər. Belə görüşlərdə Cavid əfəndi də iştirak edərdi. İşbirliyi, yaradıcılıq barədə söhbətləşərdilər.

Hüseyn Cavidin həyat yoldaşı Mişkinaz Cavid "Cavidi xatırlarkən" kitabında yazırdı: "Yadımdadır... 1936-cı ilin sentyabr ayının 27-də Pənah bəyin kiçik qızı Nigarın ad günü idi. Yenə də dostlar ora toplaşmışdı. Söhbət zamanı Üzeyir bəy üzünü Cavidə tutub dedi:

– Cavid əfəndi, özün bilirsən, "Koroğlu" üzərində işləyirəm. Yaman vuruşdayam. İnşallah, "Koroğlu"nu qurtarandan sonra ürəyimdə tutmuşam ki, sənin "Şeyx Sənan"ına opera yazım.

Cavid dedi:

– Üzeyir bəy, mən sənin qulluğunda həmişə hazıram. Nə vaxt istəsən, "Şeyx Sənan"a libretto yazaram. Sonra Üzeyir bəy yarıkədərli bir halda dedi ki, özün bilirsən də, mənim "Şeyx Sənan" operamın librettosu o qədər də xoşuma gəlmir. Sənin "Şeyx Sənan"ın mənim ürəyimcədir. Allah sənə də, mənə də cansağlığı versin. Yaxşı bir əsər yazarıq".

30 aprel 1937-ci ildə Üzeyir Hacıbəylinin "Koroğlu" operasının premyerasında Hüseyn Cavid də ailəsi ilə birlikdə iştirak etmişdir. Əsəri çox bəyənən Cavid əfəndi hədsiz sevinc içində "bu gün əsl xalq bayramı, əsl sənət bayramıdır" demiş, sonra isə dostunu şəxsən təbrik etmək üçün səhnə arxasına keçmişdir. "Koroğlu" operası haqqında ilk resenziyalardan birini də "Yeni yol" qəzetinin 6 may 1937-ci il tarixli sayında Hüseyn Cavid yazmışdır.

***

Amma əfsus ki, "Şeyx Sənan" operası üzərində bərabər işləmək niyyəti bu sənətkarlara nəsib olmadı. Dəhşətli 37-ci il bütün arzulara son qoydu. Cavid əfəndi həbs olunanda oğlu Ərtoğrolun 18, qızı Turanın 14 yaşı vardı.

Belə bir ağır günlərdə Üzeyir bəy dostunun ailəsinə arxa durdu. Baxmayaraq ki, çox qorxulu, təhlükəli zaman idi. "Xalq düşmənləri"nin ailələrinə yaxın insanlar da təqib olunurdular. Hətta Üzeyir bəyin də başı üzərində belə bir kabus dolanmaqda idi. Lakin bütün bunlara baxmayaraq, Ü.Hacıbəyli Cavidin ailəsinə daim mənəvi və maddi dayaq oldu. Öz qayğısını, himayəsini onlardan əsirgəmədi.

Böyük dramaturqun istedadlı oğlu Ərtoğrol Cavid 1940-cı ildə Pedaqoji İnstitutu bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. O, 1941-1942-ci illərdə Üzeyir bəy Hacıbəylinin sinfində bəstəkarlıqdan dərs almış, özünü çox istedadlı və bacarıqlı tələbə kimi göstərmiş, Üzeyir bəyin sevimlisinə çevrilmişdir.

Ərtoğrol Cavidin gələcəyinə Üzeyir bəyin çox böyük ümidi vardı. Qeyri-adi istedad sahibi olan Ə.Cavid həm də Azərbaycan Dövlət Konservatoriyası yanındakı Musiqi Elmi-Tədqiqat Kabinetində çalışaraq xalq yaradıcılığı nümunələrinin toplanılması, folklorun nota salınması işi ilə məşğul olurdu.

Ərtoğrolu da repressiyaların zərbə dalğası qurban apardı. Konservatoriya tələbəsi olmasına baxmayaraq, onu əsgərliyə çağırdılar. "Xalq düşməni"nin oğlunu Gürcüstanda çox ağır tunel tikintisi işlərinə göndərdilər. Vərəmə tutuldu... Onun müəllimləri Üzeyir bəyə, Bülbülə, anasıyla bacısına tez qırılan 24 baharlıq həyatının son aylarında yollađığı məktublarında gerçəkləşməyəcək ümidlər çırpınır...

Ağır vərəm xəstəliyinə tutulan Ərtoğrol vəfatından altı ay əvvəl – 26 aprel 1943-cü ildə Tiflisdən kabinetin rəhbəri Bülbülə göndərdiyi məktubunda nikbinliklə yazırdı: "Mənim indiki planım Naxçıvana getməkdir. Orada hər şey var. Nənəmlə qonşu kəndlərə gedəcəm. Əgər səhhətim imkan versə, kabinəti maraqlandıracaq materiallar toplayacam. Yanımda xeyli not və yazı kağızı var".

Təəssüf ki, gənc bəstəkar və tədqiqatçı istediyini həyata keçirə bilmədi. Əcəl macal vermədi, bütün arzuları yarımçıq qaldı.



Ə.Cavidin əsgərlikdən yazdığı məktubları oxuduqca onun nə qədər ağıllı, mərd, canıyanan, qayğıkeş olduğunu görməmək mümkün deyil. Yazdığı məktublarda Ərtoğrol yardım üçün yalnız əziz müəllimi Üzeyir bəyə müraciət edirdi. O, xeyirxah saydığı dahi bəstəkara bir neçə məktub göndərmişdir. Birinci məktub 25 fevral 1942-ci il tarixində yazılmışdır.

"Hörmətli, Üzeyir bəy!

Əsgərliyə getməzdən əvvəl sizinlə görüşmək istədimsə də, qismət olmadı.

Yeganə narahatçılığım anam və bacımın acınacaqlı halıdır. Rica edirəm, keçdiyimiz səmimi dərs illəri və ümidli gələcək xatirinə mümkün ola biləcək yardımınızı əsirgəməyin.

Anam uşaq bağçasında işləyə bilər. Bacım həm bağçada, həm maşiniskalıq, həm də ibtidai məktəbdə dərs (matematika, dil) deyə bilər.

Lakin ən lazım məsələ çətin hallarda nəzarət etmək, ürək vermək, mənəvi yardımdır. Zənn edirəm, rədd etməzsiniz.

Hörmətlə, Ərtoğrol".

İkinci məktubunda isə Ə.Cavid yazırdı:

"Hörmətli, Üzeyir bəy!

İlk dayanacaq mənzilimiz Abxaziya dağları oldu. Hər tərəf qarlı dağlar, soyuq, ağır iş. Bakıdan çıxdığım gündən heç kimdən məktub almamışam, hətta ailəmizdən də.

Yavaş-yavaş kimsəsizlik, ayrılıq, nigarançılıq duyğularım artır, səhhətim zəifləyir. Lakin nə olursa-olsun, mən səhhətimi saxlamalıyam.

Ən böyük əzab verən, məni rahat buraxmayan səbəb varsa, yalnız ailəmizdir. Mən çox yaxşı bilirəm ki, anam xəstədir, bəlkə də o, yataqda yatır, bacım həyatı dərk eləməyə başlarkən ancaq sıxıntılıq, ağır yaşayış gördü. Mən öz oğulluq borcumu yerinə yetirə bilmədim.

Bəzən o dərəcədə bədbinləşirəm ki, yenidən görüşmək ümidi sönür, özümü ən bədbəxt bir fərd zənn edirəm. Ailəmizin rahat dolanmasına əmin ola bilsəydim, kədərim xeyli azalardı.

Hörmətlə, tələbəniz Ərtoğrol.
15.03.1942".

Ürək ağrısı ilə oxuduğumuz bu məktubları Ə.Cavid hələ Tiflisə çatmamış, yolda olarkən qayğıkeş, xeyirxah müəlliminə yazırdı. Anasının, bacısının fikrini və dərdini çəkən 23 yaşlı Ərtoğrol yeganə ümid yeri Ü.Hacıbəylidən kömək diləyirdi. Amma narahat oğul və qardaş bilmirdi ki, peyğəmbər kimi insan olan Üzeyir bəy onsuz da Cavid əfəndinin ailəsi üçün lazımi, mümkün olanları edirdi. Onlara maddi və mənəvi yardım göstərirdi. H.Cavid həbs olunduqdan sonra qohumlarının belə üz döndərdiyi Cavidlər ailəsi, başda Üzeyir bəy olmaqla, yalnız bir neçə nəfərdən mərdliklə dəf etməyi bacarırdı.

Üzeyir bəyin diqqət-nəzəri dostunun ailəsinin üzərindən heç zaman əskik olmurdu. Qorxmaz, cəsarətli insan olan bəstkar bu ailə ilə bağlı bütün məhdudiyyətləri mərdliklə dəf etməyi bacarırdı.

Cavid əfəndinin yadigarı Turan Cavidi Dövlət Radio Komitəsinə də ilk dəfə işə düzəldən də məhz Üzeyir bəy olmuşdu. Bu barədə Turan xanım həmişə iftixarla danışardı. Turan Cavidin bununla bağlı və başqa etiraflarını Azər Turanın "Cavid əfəndi..." kitabında oxuyuruq: "Məktubu (söhbət Ərtoğrol Cavidin yazdığı məktubdan gedir) Üzeyir bəyə verdim. Oxudu və Radio Komitəsinə zəng vurdu. Kim idi Üzeyir bəyin bir sözünü iki edən. Məni işə götürdülər. Amma Üzeyir bəylə bağlı bir yanlışımı da söyləmək istəyirəm. Üzeyir bəy Ərtoğrolun məktubunu oxuyub Radio Komitəsinə zəng vurandan sonra həmin məktubu mənə qaytardı. Uzun illər Üzeyir bəyə həm şükrançı oldum, həm də üreyimdə bir qırıqlıq qaldı.

Düşünürdüm ki, Üzeyir bəy yəqin Ərtoğrolun məktubunu özündə saxlamaqdan qorxdu, çəkindi...

Amma çox-çox illər sonra Üzeyir bəyin arxivində Ərtoğrolun Gürcüstandan ona yazdığı məktubları görəndə təskinlik tapdım. Üzeyir bəy aldığı çoxlu məktubların içərisində Ərtoğrolun məktublarını ayrıca sevgi ilə qoruyub saxlamışdı. Bunu biləndən sonra Üzeyir bəylə bağlı keçirdiyim ikili duyğularıma nöqtə qoyuldu. Həm sevinirdim, həm də Üzeyir bəy barədə yanlış düşündüyüm üçün və onunla bağlı şübhələrimi uzun illər içimdə daşıdığıma görə özümü qınayırdım".

Başqa cür ola da bilməzdi. Çünki Üzeyir bəy heç vaxt ikili həyat yaşamamışdı. Onun bir üzü və bir sözü var idi. Hər zaman olduğu kimi görünmüşdü. Elə bu baxımdan da Cavidlər ailəsinə münasibəti daima birmənalı olmuşdu. H.Cavid kimi bir sənətkarı itirdiyi üçün həmişə qəlbi ağrımışdı. Amma bunu yaxınlarından başqa duyan, bilən olmamışdı. Cavidin ailəsinə isə köməyini heç zaman əsirgəməmişdi.

***

Daim Azərbaycanın, milli mədəniyyətimizin gələcəyini düşünən Üzeyir Hacıbəylinin Cavid əfəndinin istedadlı oğluna xüsusi rəğbəti vardı, ona ümidləri çox idi. Onun bəstələrinə baxanda fərəh hissi keçirirdi. Gələcəkdə böyük bəstəkar kimi şöhrət qazanacağına inanırdı. Ə.Cavid gənc yaşında xeyli musiqi əsərləri yazıb qoymuşdu. Üzeyir bəyin bəstəkarlıq sinfində təhsil alan Ərtoğrol ilk əsərlərindən birini – "Doqquz variasiya"sını sevimli müəlliminə həsr etmişdir. Bundan əlavə, onun Azərbaycan el havaları əsasında yazdığı "Üç prelüd" ("Çal-oyna", "Aşıqsayağı", "Yallı"), iki uşaq miniatürü, anası Mişkinaz xanıma ithaf etdiyi "Naxçıvan mənzərələri" adlı iki musiqi lövhəsini ("Zəngəzur dağlarında", "Batabat yaylaqlarında"), "Sonatina", skripka və fortepiano üçün "Poema", N.Rəfibəylinin şeirinə yazdığı "Eşq olsun" mahnısı və s. əsərləri göstərmək olar. Bunlar Ə.Cavidin yazıb tamamladığı əsərlərdir. Lakin onun yarımçıq qalmış əsərləri də vardır. Məsələn, böyük simfonik orkestrin müşayiəti ilə lirik-dramatik tenor səsi üçün "Romans-kapriççio" (sözləri Nizaminin), "Şeyx Sənan", "Məhsəti" operaları, "Babəkin andı" simfonik poeması və bir sıra kamera-instrumental əsərləri tamamlanmamışdır.

Ə.Cavid hətta bəzi Avropa və rus bəstəkarlarının əsərlərinin mətnlərini Azərbaycan dilinə tərcümə etmiş və çox da uğurlu alınmışdır. Məsələn, Şubertin "Arqançı", Küinin "Toxundum gülə", Cordaninin "Ey sevgilim", Şopenin "Arzu", Motsartın "Beşik nəğməsi", Ştrausun "Bahar nəğməsi", Rimski - Korsakovun "Sadko" operasından "Hindli qonağın nəğməsi", Raxmaninovun "Yasəmən", Qreçaninovun "Layla" və s. əsərlərinin bədii mətnini dilimizə ustalıqla çevirmişdir. Lakin təəssüflər olsun ki, bu əsərlərin nəşri zamanı tərcüməçi kimi Ə.Cavidin adı qeyd olunmamışdır. Xalq yazıçısı Anar "Böyük sənətkarın sənətkar oğlu" məqaləsində bu barədə böyük bəstəkar Fikrət Əmirova istinadən yazır: "Görürsünüzmü, ədəbi mətn melodiyaya necə yaxşı uyğunlaşdırılıb, axı o, kamil ədəbi savada, biliyə malik idi. Neçəneçə Avropa və rus bəstəkarlarının romans və mahnı mətnlərini dilimizə ekvivitmik tərcümə etmişdir".

Göründüyü kimi, Ə.Cavid yaşasaydı, nə qədər qiymətli əsərlər yazacaqdı. Amma xalqımızın düşmənləri buna imkan vermədilər. Repressiyanın davamı olaraq H.Cavidin yeganə oğlunu da məhv etdilər...

**Gülbəniz Babaxanlı**
**filologiya elmləri doktoru,**
**Əməkdar mədəniyyət işçisi**

## Aktrisa, rəssam Alagöz Salahova dünyasını dəyişib



Rusiyada yaşayan aktrisa, rəssam Alagöz Salahova 19 sentyabr 2023-cü il tarixində, 70 yaşında vəfat edib. Uzun müddətdir xəstəlikdən əziyyət çəkən A.Salahova Bakıda dünyasını dəyişib.

Alagöz Salahova 1953-cü ildə dünya şöhrətli rəssam, Azərbaycanın, Rusiyanın və keçmiş SSRİ-nin Xalq rəssamı Tahir Salahovun ailəsində anadan olub. Gənc yaşlarından rəssamlığa və kino sahəsinə maraq göstərib.

C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında lentə alınan "Dantenin yubileyi" (1978) filmində Sevil, "Özgə ömür"də (1987) Tamilla, "Bağlı qapı"da (1981) Rəna obrazlarını canlandırıb.

A.Salahova Moskvada "Alagöz" adlı prodüser mərkəzini təsis edib və rəhbəri olub. O, bir sıra incəsənət ustalarımızın Rusiya paytaxtında konsertlərinin təşkil olunmasına köməklik göstərib.

Alagöz Salahova sentyabrın 21-də Yasamal qəbiristanlığında dəfn olunub. Mərasimdə Mədəniyyət Nazirliyinin təmsilçiləri, mədəniyyət, incəsənət nümayəndələri iştirak ediblər.

Allah rəhmət eləsin.

## Məktəblilərə Başlıbel faciəsi barədə məlumat verilib

Ermənistanın Birinci Qarabağ müharibəsi Azərbaycan xalqına qarşı törətdiyi etnik təmizləmə, kütləvi qətliamlarla bağlı əməllərin heç də hamısı kifayət qədər öyrənilməyib. 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması mənfur qonşumuzun törətdiyi vandalizm aktlarının dəlil-sübutlarla dünya ictimaiyyətinə çatdırılması üçün də imkanlar yaradıb. Belə hadisələrdən biri də 1993-cü ildə Kəlbəcərin Başlıbel kəndində törədilən faciədir.

Sentyabrın 20-də Bakının Yasamal rayonundakı 286 nömrəli məktəbdə keçirilən "Başlıbel faciəsi: erməni vandalizminin izi ilə" mövzusunda maarifləndirmə tədbirində bu barədə söhbət açılıb. Tədbir "Effektiv Təşəbbüslər Mərkəzi" İctimai Birliyinin QHT-lərə Dövlət Dəstəyi Agentliyinin yardımı ilə həyata keçirdiyi layihə çərçivəsində təşkil olunub.

Əvvəlcə torpaqlarımızın müdafiəsi və Azərbaycanın suverenliyi uğrunda canını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri məktəbin direktoru Samir Mehdizadə açıb. Məktəbin tarix müəllimi Malik Məmmədov Ermənistanın hərbi cinayətləri, Vətən müharibəsindən sonra aşkarlanan kütləvi məzarlıqlar barədə danışıb.

Başlıbel faciəsi haqqında "Qanlı kaha" kitabının müəllifi Elxan Salahov otuz il öncə törədilən və uzun müddət geniş ictimaiyyətin bixəbər olduğu bu hadisə barədə ətraflı bəhs edib. Bildirib ki, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı zamanı Başlıbel kəndində 76 sakin işğalçı ordunun mühasirəsində qalıb. Onlardan 14 nəfəri qarlı dağ aşırımlarından keçməklə mühasirədən çıxmaq istəyərkən yolda qətlə yetirilib və ya girov götürülüb. Digər 62 nəfər isə kəndin yaxınlığındakı kahalara sığınaraq 113 gün bu vəziyyətdə yaşam mücadiləsi verib. Bu müddətdə dəfələrlə erməni silahlılarının hücumuna məruz qalan dinc sakinlərdən 14 nəfəri girov götürülüb, 18 nəfəri qətlə yetirilib, 1 nəfəri itkin düşüb, 29 nəfər isə gizli dağ yolları ilə mühasirədən çıxa bilib.

Faciənin şahidlərindən biri Səlim Mehdiyev mühasirə günlərində üzləşdikləri çoxsaylı çətinlikləri, yaşadıqları ağrılı-acılı günləri xatırlayıb.

Çıxışlarda qeyd olunub ki, ən müxtəlif səpkili, məqsədli informasiyalar "bolluğu"nda yaşadığımız indiki dövrdə, xüsusilə məktəbyaşlı uşaqların bu həqiqətləri dərindən öyrənməsinə daha çox ehtiyac var.

Tədbirin sonunda "Qanlı kaha" kitabı müəllim və şagirdlərə paylanılıb.

## Milli düşüncənin yorulmaz təbliğatçısı

İctimai-bədii fikir tariximizdə demokratik düşüncəli, mübariz şəxsiyyət kimi qalan ziyalılarımızdan biri də şair, tədqiqatçı, tərcüməçi Əmin Abid Gültəkin olub. O, Orta əsrlər ədəbiyyatımızın tədqiqində, "Kitabi-Dədə Qorqud" dastanının tədqiq olunmasında böyük xidmətlər göstərib. Eyni zamanda milli düşüncənin yorulmaz təbliğatçısı kimi də tanınıb. Bu il görkəmli ədibin anadan olmasının 125 illiyidir.



Əmin Abid (Əmin Mütəllib oğlu Əhmədov) 1898-ci il noyabrın 2-də Bakıda dünyaya göz açıb. İbtidai və orta təhsilini burada tamamladıqdan sonra ali təhsil almaq məqsədilə 1914-cü ildə Türkiyəyə getmək istəyir. Ancaq yenicə başlayan I Dünya müharibəsi buna mane olur. O, qardaşı şair Ələbbas Müznibin naşiri və redaktoru olduğu "Dirilik" və "Babayi-Əmir" jurnallarında çalışmağa başlayır. Müxtəlif imzalarla hekayə, şeir, məqalə və tərcümələr dərc etdirir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulandan sonra onun xaricdə ali təhsil almaq arzusu da gerçəkləşir. İstanbul Universitetinin Ədəbiyyat fakültəsinə qəbul olur. Tələbəlik dövründə "Azərbaycan türklərinin ədəbiyyat tarixi" adlı monoqrafik əsərini qələmə alır. 1920-ci ildə Cümhuriyyət süqut edir, vətəndən gələn acı xəbərlər onun yaradıcılığında da özünü göstərir. "Yeni Qafqaz", "Azəri-türk", "Odlu yurd" və digər jurnallarda Gültəkin təxəllüsü ilə milli ruhlu şeirlər dərc etdirir. Sibir sürgünlərinə, təqib və təhqirlərə qarşı etiraz səsini ucaldır. Şairin Türkiyədə qələmə aldığı şeirlər siyasi mühacirlərin köməyi ilə nəşr olunan "Buzlu cəhənnəm" adlı kitabında yer alır.

Əmin Abid 1927-ci ildə Azərbaycana qayıdır, vətənində başqa ovqatla qarşılaşır. İstanbula oxumağa getdiyi zaman milli şüur yüksək, xalqda özünüdərk hissləri güclü idi. İndi isə o bunların əksini müşahidə edir. Sovet rejiminin apardığı yadlaşdırma, milli dəyərləri heçə endirmə siyasətinin, müstəqil düşüncə sahiblərinin təqib edilməsinin şahidi olur. Ancaq bunlara baxmayaraq, o, mənsub olduğu xalqın ədəbiyyatını, folklorunu araşdırmaq işində həvəsdən düşmür, səylərini daha da artırır.

Bakı Dövlət Universitetində işə düzəlir. Qəzet və jurnallarda müasir və klassik ədəbiyyata, şifahi xalq yaradıcılığına dair elmi məqalələri çap edilir. Tədris ocaqlarında, dərnəklərdə mühazirələrlə çıxış edir. "Azərbaycan türklərinin ədəbiyyat tarixi", "Bayatının türk xalqları ədəbiyyatında mövqeyi", "Azərbaycan ədəbiyyatının qədim abidələrindən" monoqrafik əsərləri, eyni zamanda "Kitabi-Dədə Qorqud"un mətni haqqında məlumat", "XVII əsr Azərbaycan ədəbiyyatı", "Ədəbiyyat tariximizdə Sabirin mövqeyi", "Mirzə Şəfi haqqında aparılan tədqiqlərə bir baxış", "Türk el ədəbiyyatına elmi bir baxış ("Oğuznamə")" kimi məqalələri mətbuatda dərc olunur. Gərgin elmi axtarışları nəticəsində Məhəmməd Füzulinin "Söhbətül-əsmar" əsərini aşkara çıxarır və elm aləminə tanıdır.

Alimin yaradıcılığının ən maraqlı səhifələri folklorumuzla, qədim qaynaqlarımızla bağlı olub. Mənbələrdə göstərilir ki, Əmin Abidin fikrincə, qədim türk dastanlarının ahəngdar mətni – vurğunun cümlələrin sonuna salınması, cümlə və ifadələrin təkrarı və s. zaman keçdikcə cilalanaraq heca vəznli şeiri formalaşdırıb. O, qədim şeirlərimizi "vəznli şeir" adlandırıb. Fikirlərini əsaslandırmaq üçün "Kitabi-Dədə Qorqud"un Drezden Kitabxanasında saxlanılan nüsxəsindən nümunələr verib. Bu dastanın müstəqil bir əsər deyil, "Oğuznamə"nin tərkib hissəsi olduğunu bildirib.

O, elmi yaradıcılığı ilə yanaşı, gizli şəkildə yayılan vətənpərvərlik mövzusundakı şeirləri ilə gənc nəslə milli mübarizə ruhunun aşılanmasında önəmli rol oynayır. Həmin şeirlərin birində müəllif işğalçı bolşevik rejiminə, müstəmləkə zülmünə qarşı etirazını belə ifadə edir:

*Qaldıqca ruslarda diyarım mənim,*
*İntiqam olacaq şüarım mənim.*

Əmin Abid millət sevgisinə, vətənpərvərliyinə görə təqiblərə məruz qalır və işdən çıxarılır. Eyni zamanda mətbuatda tənqid hədəfinə çevrilir. Maarif sahəsində aparılan "təmizləmə" əməliyyatı əsasən türk ədəbiyyatı, coğrafiya və tarix müəllimlərinə qarşı yönəldilirdi. Bundan sonra onun Bakıda işləməsi daha da çətinləşir. Məcburiyyət qarşısında qalan alim 1929-1934-cü illərdə Ağdaş, Quba və Ağdam rayonlarında müəllim işləyir.

Milli düşüncəli ziyalıların məhrumiyyət dövrü – 1937-ci il minlərlə günahsız insan kimi Əmin Abidi də qara kölgə kimi təqib edir.1938-ci il iyulun 14-də həbs edilir. Türkiyəyə casusluqda, gənclər arasında pantürkizmi təbliğ etməkdə günahlandırılır. Oktyabrın 21-də, 40 yaşında güllələnir...

**S.Fərəcov**

# Bir Trabzon xatirəsi...

## Sultan Süleymanın doğulduğu “Şahzadələr şəhəri”



Adı “Dədə Qorqud” dastanında da çəkilən, Osmanlı imperiyasının onuncu padşahı Sultan Süleyman Qanuninin doğulduğu və uşaqlığının keçdiyi bu şəhər, onun tarixi tikililəri və gözəl təbiəti haqqında məlumatım ancaq oxuduqlarım, internetdə, televiziyalarda görüb-eşitdiklərim qədər idi. Amma deyir, yüz eşitməkdənsə bir görmək yaxşıdır...

Trabzon Türkiyə ərazisinin böyüklüyünə görə iyirmi doqquzuncu şəhəridir. 4 min kvadrat kilometrdən çox ərazisi olan Trabzon vilayəti Qara dəniz sahilləri ilə Ziqana dağları arasında yerləşir. Əsrarəngiz təbiətə, zəngin tarixə və mədəniyyətə malik bu şəhər haqqında tanınmış səyyah Övliya Çələbi vaxtilə demişdi: “Trabzona kiçik İstanbul desək, yanılmarıq. O, İrəm bağları kimi bəzəkli, rəngarəng bir şəhərdir”.

Təyyarəmiz Trabzon aeroportuna enəndə gecə olduğundan şəkillərdən gördüyüm yaşıllıqlar qoynundakı şəhərin gözəlliyini sezməsəm də, havanın təmizliyini aldığım nəfəsdə hiss etdim...

### Türkiyə Mədəniyyət Yolu Festivalları – Trabzonun cal-çağırlı günləri

Nə xoş ki, səfərimiz 19-27 avqust tarixlərində keçirilən “Türkiyə Mədəniyyət Yolu Festivalları”na, möhtəşəm tədbirin bir dayanacağı olan Trabzon (Sümela) günlərinə təsadüf edirdi. Yəni Trabzonda qələbəlik, cal-çağırlı günlər idi. Festival çərçivəsində şəhərin müxtəlif məkanlarında sərgi, tamaşa, konsert, film nümayişləri vardı və tədbirlərə giriş sərbəst idi. Hətta foto həvəskarları festival günlərində Trabzon mənzərələrini kameranın yaddaşına köçürüb qazanc da əldə edə bilərdilər. Festival zamanı çəkilmiş fotoşəkillər münsiflər heyəti tərəfindən qiymətləndirilərək müəlliflərə müvafiq pul mükafatı təqdim olunurdu.

Biz bu fürsətdən istifadə edə bilməsək də, ailəliklə evində qonaq qaldığımız tanışımız Mehmet bəyin sayəsində Trabzonu yaxından tanımaq imkanımız oldu.

Səyahətimizin ilk günü Trabzon Şəhər Muzeyini ziyarət etdik. Muzeydə tarixi maraqlı eksponatlar – misdən qablar, mum heykəllər, milli geyimlər, ilk Trabzon liseyi və qardaş ölkənin 4 güclü komandasından olan “Trabzonspor”un nailiyyətləri haqqında məlumat aldıq.

Muzeyi tərk edərkən gözlənilməz məqamla qarşılaşdıq. Bu zaman festival iştirakçılarının orkestrin müşayiəti ilə mərkəzi küçədən təntənəli yürüşünə şahid olduq. Biz də bu axına qoşulduq. Uzun taxtaların üzərində gəzən jonqlyorların hərəkətləri, hər kəsin, xüsusilə uşaqların sevinc və marağına səbəb oldu.

“Türkiyə Mədəniyyət Yolu Festivalları” çərçivəsində hər axşam Trabzon Sərgi Mərkəzində Bengü, Mehmet Erdem və Rubato, Metin Özülkü, Ömür Gedik, Hande Ünsal, Gökhan Tepe və s. digər tanınmış müğənnilərin iştirakı ilə konsert proqramları təşkil olunurdu. Bundan əlavə, türk xalq və sənət musiqisi, xalq rəqs ansamblları öz ifaları ilə şəhərin sakinlərinə və qonaqlara unudulmaz anlar yaşadırdı. Trabzon Böyükşəhər Bələdiyyəsi Hamamizadə İhsanbəy Mədəniyyət və İncəsənət Mərkəzində “Kəsişmə: yaxşı ki varsan, Eren” filminin nümayişi də yaddaqalan oldu. Film 11 avqust 2017-ci ildə Trabzonun Maçka qəsəbəsində terrorçularla qəhrəman türk əsgərləri arasında baş verən qarşıdurmada şəhid olan Eren Bülbül, ehtiyatda olan zabit Ferhat Gedik və Fethi Sekindən bəhs edir.

### Sümela monastırı

Səyahətimizin növbəti ünvanı Məryəm ana və ya Sümela monastırı oldu. Qeyd edək ki, Türkiyənin Qara dəniz bölgəsində çoxlu monastırlara rast gəlmək mümkündür. Nəhəng meşələr, sıldırım qayalar, çətin çıxılan dağlar monastır üçün həmişə uyğun sayılıb. Müxtəlif dövrlərə şahidlik edən və günümüzə qədər gəlib çatan bu tikililər möhtəşəm arxitekturası ilə insanları valeh etməkdədir. Onu da bildirək ki, Sümela monastırı 2000-ci ildə UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına salınıb.

Biz də uzun yol qət etdikdən sonra, nəhayət, gəlib çatdıq görkəmi və yerləşdiyi məkan ilə ziyarətçiləri, sözün həqiqi mənasında, heyrətə salan Sümela monastırına.

Dəniz səviyyəsindən 1150 metr yüksəklikdə yerləşən monastırın “Sümela” adı “qara” mənasını verən yunanca “melas” sözündən götürüb. Bəziləri monastırın adının üzərində qurulduğu qara rəngli dağdan gəldiyini deyir, bir çoxları isə buradakı Məryəm ikonasının qara rəngdə olduğunu, ona görə belə adlandırıldığını söyləyir.



Deyilənə görə, vaxtilə Sümela monastırı müqəddəs məkan kimi tanınıb. Burada möcüzələrinə inanıldığı “Qara Madonna” kimi tanınan Məryəm ana ikonası olub. Guya bu ikona xəstəlikləri, aclığı və hər cür bəlaları aradan qaldırırmış. Rəvayətə görə, bir rahib yuxuda həzrət İsa və Məryəm ananı mağarada görür. Məryəm ana rahibə müqəddəs Lukanın onun üçün ikona düzəltdiyini və bu ikonanın mələklər tərəfindən mağaraya gətirildiyini söyləyir. O, yuxudan oyanır və bu mağaranı axtarmaq üçün yola düşür. Afinadan yola çıxan rahib Trabzon limanında başqa bir rahiblə – İstanbuldan gələn rahiblə qarşılaşır. İstanbullu rahib də eyni yuxunu gördüyü üçün həmin mağaranı axtarırdı. Bir-birindən xəbərsiz və müxtəlif yerlərdən gələn bu iki rahib – Barnabas və Sophroios yuxuda gördükləri mağaranı tapırlar. Həqiqətən də, ikona mağaranın içərisində idi. Onlar dərhal buranı kilsəyə çevirmək üçün işə başlayırlar. Deyilənə görə, sonralar xristianlığın mühüm mərkəzlərindən birinə çevrilən Sümela monastırı belə yaranır.

Biz də monastırı görmək üçün təxminən 300 metr uzunluğunda çox ensiz pilləkənləri qalxırıq. Nəhəng küknar və vələs ağaclarının əhatəsindəki yol sanki adamı sehrli nağıllar aləminə aparır...

Kassadan biletləri almaq istəyəndə məlum olur ki, monastıra girmək üçün muzeylərə giriş kartı olmalıdır. Abidəyə giriş haqqı isə 450 türk lirəsi (təxminən 25 manat) təşkil edir. Oğlum Mikayılın təkidi ilə jurnalist vəsiqəmizi göstəririk. Kassir xanım Azərbaycan Mədəniyyət Nazirliyinin “Mədəniyyət” qəzetində işlədiyimizi biləndə gülümsəyərək “memur” deyib, giriş haqqının yarısını ödəyəcəyimizi bildirir.



İçəri daxil oluruq. Turist sarıdan qələbəlikdir və hər kəs bu tarix yadigarının qarşısında heyrətini gizlədə bilmir. Elə biz də. Möhtəşəm tikili rahiblərin, şagirdlərin otaqları, ibadətgahları, mehmanxana və kitabxanası ilə birlikdə ümumilikdə 72 otaqdan ibarətdir. Monastırın ortasındakı bulaq marağımıza səbəb olur. Deməli, yuxarıdakı qayalardan iri su damcıları bir yerə cəmləşərək bulağa çevrilir. Əsrlər boyu heç zaman kəsilməyən bu suyun bəzi xəstəlikləri sağaltdığına inanılıb...



Monastırın divarlarındakı Məryəm ana və İsa peyğəmbərin əks olunmuş freskaları qarşısında dayanırıq. Təsvirlərin baş hissələrində bir sıra freska birləşmələrinin niyə qopduğunu, yaxud qoparıldığını xəbər alırıq. Bildirilir ki, qədim zamanlarda cahil insanlar həmin təsvirlərin bəzi hissələrini qoparıb suya qarışdırıb xəstələrə içirdiblər. Guya bununla insanların şəfa tapacaqlarına inanıblar.

### Gözoxşayan Uzungöl

Səyahətimizin 3-cü günü Soğanlı və Kaçkar sıra dağlarının kəsişməsində yerləşən füsunkar görkəmli Uzungölə üz tutduq. Göl qayaların qoparaq Haldizən dərəsinin önünü kəsməsi nəticəsində yaranıb. Ərazidə daimi yaşayış 1650-ci illərdən başlanıb.

Burada ilk olaraq qeyri-müsəlman 12 tayfa məskunlaşıb. Daha sonra müsəlmanlar da yerləşiblər. Uzungöl ərazisi turistlərin marağını çəkən məkanlardandır. Ona görə də burada çoxsaylı hotel, pansionat və istirahət kompleksləri tikilib və ilboyu xidmət göstərir.

Yaxınlıqdakı dağların ətəklərindəki ağacların əksinin düşdüyü göl əsrarəngiz mənzərəsi ilə göz oxşayır. Ətrafdakı turistlərin səs-küyünə rəğmən göl gözəlliyi ilə adamın ruhuna rahatlıq bəxş edir. Saatlarla səssizcə dayanıb gölü, ətrafdakı yaşıllığı, möhtəşəm dağları seyr etmək istəyirsən...

### Görə bilmədiyimiz Atatürk köşkü

Növbəti gün “Şahzadələr şəhəri” Trabzonun maraqlı məkanlarından olan Atatürk köşkünü görməyə getdik. Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə onun qurucusunun xatirəsini bu tarixi yerdə yad etmək istədik.

Təəssüflər olsun ki, köşkdə davam edən təmir səbəbindən arzumuz gerçəkləşmədi. Oradakı işçilərdən təmir prosesinin nə zaman başa çatacağını xəbər aldıq. Bildirildi ki, ötən ildən həyata keçirilən təmir işləri bu ilin oktyabr ayında yekunlaşacaq. Biz də təəssüf içində üz tutduq Türkiyənin ikinci Ayasofya camisinə...

### Məbəddən məscidə...

Ayasofya Orta əsrlərdə dənizə yaxın və dağlıq ərazidə tikilmiş monastır kilsəsi idi. Abidə Bizans əyalət üslubu, gürcü soğan qübbəsi və Səlcuqlu daş hörgülərinin harmoniya içində istifadə edildiyi qeyri-adi bir memarlığa malikdir.

Bu gün həm muzey, həm də məscid kimi ziyarət edilən Trabzon Ayasofya kilsəsi Trabzon İmperatorluğunun padşahlarından I Manuel Komnenos (1238-1263) dövründə inşa olunub. İngilis səyyahı və tədqiqatçısı Q.Finlay tərəfindən 1427-ci ilə aid edilən zəng qülləsi kilsənin qərbində yerləşir. Kilsənin şimalındakı üç apsisli kapellanın qalıqlarının daha erkən dövrə aid olduğu təxmin edilir. Fateh Sultan Mehmet Trabzonu fəth etdikdən sonra bina məscidə çevrilib. Ayasofya əsrlər boyu şəhəri ziyarət etməyə gələn səyyahların və tədqiqatçıların diqqətini çəkib. 1868-ci ildə xaraba görkəmli alan məscidin bursalı Rza Əfəndinin təşviqi ilə əsaslı təmir edildiyi bildirilir.

Trabzon Ayasofyası tarix boyu müxtəlif funksiyaları yerinə yetirib. XVI-XVII əsrlərdə məscid, I Dünya müharibəsi illərində – Rusiya işğalı zamanı hərbi qərargah, xəstəxana, anbar kimi istifadə olunub. İşğaldan azad edildikdən sonra yenidən məscid kimi fəaliyyət göstərib. 1964-cü ildə isə muzeyə çevrilib. Bina 2013-cü ildə yenidən məscid kimi ibadətə açılıb. Tikilidə çox sayda freskalar və Məryəm ana freskası var. Biz divarlarda xristian mozaikaları ilə yanaşı, dörd ərəb xəlifəsi – Əbu Bəkr, Ömər, Osman və Əlinin adlarına da rast gəldik.

Trabzona səyahətimizin qalan bir neçə gününü isə hədiyyə almaq üçün alış-veriş mərkəzlərində keçirdik. Sonuncu gün isə öz sehri və gözəlliyi ilə yaddaşımızda dərin iz qoyan şəhərdən heç ayrılmaq istəmirdik...

Sağlıq olsun, bu gözəl şəhərə növbəti səfərimizdə Atatürk köşkündən xüsusi yazı hazırlamaq diləyi və bizə mükəmməl bələdçilik edən Mehmet bəyə təşəkkürlərlə...

**Səbinə Əlibalaqızı**
**Bakı-Trabzon-Bakı**

# “Aşıqlar Vətən müharibəsində Qələbəni tərənnüm edir”

## Audiodiskin təqdimatı olub

Xəbər verdiyimiz kimi, Azərbaycan Aşıqlar Birliyi (AAB) Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirdiyi layihə üzrə “Aşıqlar Vətən müharibəsində Qələbəni tərənnüm edir” adlı audiodisk hazırlayıb. Sentyabrın 19-da AAB-də audiodiskin təqdimatı olub.

Birliyin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı giriş sözündə layihənin əhəmiyyətindən danışıb.

Layihənin koordinatoru, AAB-nin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, layihə çərçivəsində aşıqların 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı Qələbəni tərənnüm edən ifalarından ibarət audiodisk hazırlanıb. Diskdə müxtəlif aşıq havalarından ibarət 20 ifa yer alıb.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin əməkdaşı Nilufər Əhmədova, Əməkdar jurnalist Faiq Qismətoğlu, Əməkdar mədəniyyət işçisi Samirə Əliyeva layihəni təqdir edərək bu istiqamətdə işlərin gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Sonra söz aşıqlara verilib. İfaları audiodiskdə yer almış Nəbi Nağıyev, Roman Azaflı, Ruhiyyə Zəngilanlı, İmran Xəlilov, Ədalət Almәmmәdov və Kərəm Təbrizoğlunun, eləcə də “Çeşmə” və “Misri” folklor qruplarının ifalarında Vətəni, ordumuzu və qələbəmizi tərənnüm edən aşıq havaları alqışlarla qarşılanıb.

## Xatirə təqvimi 23–26 sentyabr

### Azərbaycan

**23 sentyabr 1928** – Tanınmış opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (1928 – 16.12.2011) Bakıda doğulub. Akademik Opera və Balet Teatrının solisti (1951-1988) olub. Əsas partiyaları: Nigar (“Koroğlu” – Ü.Hacıbəyli), Nərgiz, Gülzar (“Nərgiz”, “Şah İsmayıl” – M.Maqomayev), Sevil (“Sevil” – F.Əmirov) və s.

**23 sentyabr 1928** – Tanınmış arxeoloq, tarix elmləri doktoru Rauf Maqomedoviç Munçayev (1928 – 4.7.2021) Zaqatalada doğulub. Rusiya EA-nın Arxeologiya İnstitutunun direktoru olub.

**23 sentyabr 1929** – Yazıçı-jurnalist, Əməkdar incəsənət xadimi Əfqan (Haciağa oğlu Əsgərov; 1929 – 13.2.2022) Salyan rayonunun Qarabağlı kəndində anadan olub. “Həsrət də bir vüsaldır”, “Qartal əfsanəsi” romanları, “Dədə Bəhmən” trilogiyası və s. əsərlərin müəllifidir.

**23 sentyabr 1929** – Tarixçi, şərqşünas, türkoloq Yusif Bəhlul oğlu Yusifov (1929 – 4.1.1998) Qərbi Azərbaycanın Vedi mahalında doğulub. Azərbaycan Pedaqoji Universitetinin professoru, mixi yazılar üzrə mütəxəssis olub.

**23 sentyabr 1957** – Əməkdar artist, qarmon ifaçısı Etibar İsmayıl oğlu Qasımbəyli (1957 – 27.10.2020) Bakıda doğulub.

**23 sentyabr 1969** – Şair-publisist Ülvi Yusif oğlu Bünyadzadə (1969 – 20.1.1990) doğulub. 20 Yanvar qırğınında şəhid olub.

**23 sentyabr 1970** – Görkəmli yazıçı-dramaturq, ssenarist Sabit Rəhman (Sabit Kərim oğlu Mahmudov; 26.3.1910 – 1970) vəfat edib. “Toy”, “Nişanlı qız”, “Əliqulu evlənir” və s. pyeslərin, “Əhməd haradadır?”, “Ulduz” filmlərinin ssenari müəllifidir.

**23 sentyabr 2013** – Əməkdar artist Muxtar Şahmar oğlu İbadov (2.2.1955 – 2013) vəfat edib. Şəki Dram, Dövlət Gənclər teatrlarının aktyoru olub, filmlərə çəkilib.

**23 sentyabr 2014** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (12.8.1921 – 2014) vəfat edib.

**23 sentyabr 2015** – Şair, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (24.12.1939 – 2015) vəfat edib.

**24 sentyabr 1977** – Tanınmış şair, Dövlət mükafatı laureatı Əhməd Cəmil (Əhməd Səttar oğlu Cəmilzadə; 20.10.1913 – 1977) vəfat edib. Ədəbi nəşrlərdə müxtəlif vəzifələrdə çalışıb. Rus dilindən ədəbi tərcümələr edib.

**24 sentyabr 2012** – Prezident İlham Əliyev Xalq artisti, tanınmış müğənni Şövkət Ələkbərovanın 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**24 sentyabr 2022** – Prezident İlham Əliyev mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.

**25 sentyabr 1890** – Folklorşünas alim, Əməkdar mədəniyyət işçisi Əbülqasım Nurməmməd oğlu Hüseynzadə (1890 – 2.9.1988) anadan olub.

**25 sentyabr 1896** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Sergey Mitrofanoviç Yefimenko (1896-1971) anadan olub. 1927-ci ildən Dövlət Rus Dram Teatrında rəssam və baş rəssam işləyib, Opera və Balet Teatrında çalışıb.

**25 sentyabr 1906** – Azərbaycanın və Türkmənistanın Əməkdar artisti, opera müğənnisi Xanlar Məmməd oğlu Haqverdiyev (1906 – 5.12.1980) Ağdam rayonunun Seyidli kəndində doğulub. Akademik Opera və Balet Teatrında çalışıb. 1930-cu illərdə Türkmənistanda Opera və Dram Teatrının yaradılmasında böyük xidmətləri olub.

**25 sentyabr 1906** – Xalq artisti Solmaz (Nina) Orlinskaya (1906-1973) anadan olub. Tiflis Azərbaycan teatrında çalışıb, 1933-cü ildən Gəncə Dram Teatrının aktrisası olub.

**25 sentyabr 1910** – Xalq artisti Sergey İliç Yakuşev (1910–1995) Həştərxanda doğulub. 1948-ci ildən Dövlət Rus Dram Teatrının aktyoru olub.

**25 sentyabr 1913** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Nüsrət Möhsün oğlu Fətullayev (1913 – 1.10.1987) Lənkəran rayonunda doğulub. 1935-ci ildən Akademik Milli Dram Teatrında çalışıb, teatrın baş rəssamı olub.

**25 sentyabr 1928** – Kinorejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Arif Hacağa oğlu Babayev (1928 – 26.8.1983) Bakıda doğulub. Filmləri: “Uşaqlığın son gecəsi”, “Gün keçdi”, “Arxadan vurulan zərbə”, “Alma almaya bənzər”, “Birisigün, gecəyarısı...” və s.

**25 sentyabr 1929** – Kitabxanaşünas alim Tacəddin Fərhad oğlu Quliyev (1929–2005) Goranboy rayonunun Zeyvə kəndində anadan olub. Respublika Kitabxana Kollektorunun direktoru, BDU-nun kafedra müdiri işləyib.

**25 sentyabr 1935** – Tanınmış ədəbiyyatşünas, filosof Asif Qasım oğlu Əfəndiyev (Asif Ata; 1935 – 6.6.1997) anadan olub. “Dairələr”, “İnsan yolu”, “Tarixə çatmaq” və d. fəlsəfi-bədii əsərlərin müəllifidir.

**25 sentyabr 1984** – Əməkdar incəsənət xadimi, kinorejissor Zeynəb Talıb qızı Kazımova (27.12.1912 – 1984) vəfat edib.

**26 sentyabr 1936** – Əməkdar artist, tanınmış rəqqas Kamil Hənifə oğlu Dadaşov (1936 – 15.10.2016) Bakının Novxanı kəndində anadan olub.

**26 sentyabr 1951** – Xalq artisti Ramiz Soltan oğlu Məmmədov (1951 – 21.3.2021) anadan olub. Akademik Musiqili Teatrda çalışıb. Televiziya tamaşalarında, filmlərdə (“Alma almaya bənzər”, “Yalan”) çəkilib.

**26 sentyabr 1961** – Görkəmli müğənni, Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov; 22.6.1897 – 1961) vəfat edib. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub, xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetini yaradıb.

**26 sentyabr 1967** – Əməkdar artist Nağıddin Ağarza oğlu Məmmədov (1967 – 22.5.2019) Göygöl rayonunda doğulub. Gəncə Dövlət Kukla Teatrının aktyoru olub.

**26 sentyabr 2002** – Əməkdar artist, vokalçı (soprano) Mariya Sergeyevna Titarenko (27.3.1917 – 2002) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

**26 sentyabr 2008** – Əməkdar incəsənət xadimi, kinooperator Şərif İsmayıl oğlu Şərifov (13.10.1938 – 2008) vəfat edib. Filmləri: “Yol əhvalatı”, “Əzablı yollar”, “Qərib cinlər diyarında” və s.

**26 sentyabr 2021** – Əməkdar incəsənət xadimi, bəstəkar Adil Musa oğlu Bəbirov (15.2.1934 – 2021) vəfat edib. Ömrünün son illərini Kanadada yaşayıb.

### Dünya

**23 sentyabr 1901** – Çexiya yazıçısı və şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1984) laureatı Yaroslav Seyfert (Jaroslav Seifert; 1901–1986) anadan olub.

**23 sentyabr 1913** – Gürcü bəstəkarı, SSRİ Xalq artisti Aleksey Davidoviç Maçavariani (1913–1995) anadan olub. “Pələng dərisi geymiş pəhləvan”, “Otello” baletlərinin müəllifidir.

**23 sentyabr 1930** – Amerika cazmeni və pianoçusu Rey Çarlz (Raymond Charles Robinson; 1930 – 10.6.2004) anadan olub.

**23 sentyabr 1938** – Alman aktrisası Romi Şnayder (Romy Schneider – Rosemarie Magdalena Albach-Retty; 1938–1982) Vyanada doğulub. Filmləri: “Əsas sevməkdir”, “Kristina”, “Köhnə tüfəng” və s.

**24 sentyabr 1896** – Amerika yazıçısı Frensis Skott Fitscerald (Francis Scott Key Fitzgerald; 1896 – 21.12.1940) anadan olub. Əsərləri: “Cənnətin bu tərəfində”, “Gözəl və lənətlənmişlər”, “Böyük Qetsbi” və s.

**24 sentyabr 1934** – İngilis fantast-yazıçısı Con Branner (John Kilian Houston Brunner; 1934-1995) anadan olub.

**25 sentyabr 1765** – Polşa bəstəkarı Mixail Oginski (Michal Kleofas Oginski; 1765–1833) anadan olub.

**25 sentyabr 1897** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1949) Vilyam Folkner (William Cuthbert Faulkner; 1897–1962) anadan olub. “Avqustda işıq”, “Şəhər”, “İmarət” və s. romanların müəllifidir.

**25 sentyabr 1906** – Rus bəstəkarı, dirijor, pedaqoq Dmitri Dmitriyeviç Şostakoviç (1906 – 9.8.1975) anadan olub. “Burun”, “Mtsen qəzasının ledi Makbeti” operaları, “Qızıl əsr”, “İşıqlı bulaq” baletləri, 15 simfoniya və s. əsərlərin müəllifidir. Moskva Konservatoriyasında Qara Qarayevin müəllimi olub.

**26 sentyabr 1888** – Amerika-ingilis şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1948) laureatı Tomas Eliot (Thomas Stearns Eliot; 1888–1965) anadan olub. XX əsr modern poeziyasının parlaq nümayəndələrindən biridir.

**Hazırladı: V.Orxan**

# TÜRKSOY-un Şuşada “Rəssamlar görüşü” başa çatıb

## Mədəniyyət paytaxtımıza həsr edilən əsərlərin kataloqu nəşr olunacaq

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un ənənəvi layihələrindən olan “Rəssamlar görüşü”nün sayca 23-cüsü bu il “Şuşa 2023 – Türk dünyasının mədəniyyət paytaxtı” tədbirləri çərçivəsində ölkəmizdə keçirilib.

10-20 sentyabr tarixlərini əhatə edən görüşə Türk dünyasının 6 ölkəsindən – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistandan 12 tanınmış rəssam qatılıb. Rəssamlar bir neçə gün ərzində mədəniyyət və sənət beşiyimiz Şuşada əsərlərini ərsəyə gətiriblər. Layihədə ölkəmizi Xalq rəssamları Arif Əziz və Sakit Məmmədov təmsil edib.

Sentyabrın 19-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında TÜRKSOY-un XXIII “Rəssamlar görüşü”nə həsr edilən tədbir keçirilib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov layihənin əhəmiyyəti barədə danışıb, iştirakçılara yeni sənət uğurları arzulayıb.

Sonra nazir müavinləri Fərid Cəfərov və Murad Hüseynov TÜRKSOY-un təşəkkürnamələrini rəssamlara təqdim ediblər.

Layihə çərçivəsində ərsəyə gətirilən əsərlərin gələn ay Bakıda TÜRKSOY-un 30 illik yubileyinə həsr edilən təntənəli tədbirdə nümayişi nəzərdə tutulur.



Xatırladaq ki, TÜRKSOY-un ötənilki “Rəssamlar görüşü”nə Türkiyənin Safranbolu şəhəri (Karabük vilayəti) ev sahibliyi etmişdi.

Onu da qeyd edək ki, TÜRKSOY-un himayəsi ilə Türk dünyası rəssamlarının görüşləri bu ildən tematik silsilələr formatında da davam etdirilir. Bu yaxınlarda belə bir görüş Macarıstanda gerçəkləşib. TÜRKSOY-un və Macarıstanın Lakitelek Fondunun təşkilatçılığı ilə keçirilən sənət toplantısı ünlü macar şairi Şandor Petöfinin 200 illik yubileyinə həsr olunub.

***

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı layihə barədə qəzetimizə bildirdi ki, “Şuşa 2023 – Türk dünyasının mədəniyyət paytaxtı” ili çərçivəsində təşkilat bir sıra layihələr həyata keçirir. “Rəssamlar görüşü” də TÜRKSOY-un mədəniyyət layihələri sırasında mühüm yer tutur: “Hər il təşkil edilən bu görüş çərçivəsində Türk dünyasının fırça ustaları bir araya gəlir, rəssamlar arasında yeni körpülərin, sənət mübadiləsinin təməli atılır. 23-cü dəfə təşkil edilən bu tədbirə altı türk respublikasının hərəsindən 2 rəssam dəvət edilib. Onlar 10 sentyabrdan Azərbaycanda idilər və hər bir rəssam Şuşanı özünəməxsusluğu ilə kətana köçürmək imkanı qazandı. Şəhərin əsrarəngiz təbiəti, tarixi abidələri, xarıbülbül gülü, söz-sənət adamları və digər mövzuları qeyd edə bilərik. Yeni dirçələn Şuşa da bu əsərlərdə rənglərin dili ilə vəsf olunub. Hər bir rəssam sənət düşərgəsi müddətində üç əsər ərsəyə gətirib...”.

E.Qafarlı dedi ki, oktyabr ayında Heydər Əliyev Mərkəzində TÜRKSOY-un 30 illiyinə həsr edilən təntənəli tədbir keçiriləcək. Həmin tədbirdə bu əsərlər də sərgilənəcək. Rəsmlər nümayiş olunduqdan sonra kataloq şəklində nəşr ediləcək türk respublikalarına paylanılacaq.

**Lalə Azəri**

# “Sükutun dərinliyi”ndəki gerçəklər

## Reza Deqatinin Fransada silsilə sərgiləri davam edir

Xəbər verdiyimiz kimi, məşhur fotoqraf Reza Deqatinin Fransanın regionlarında silsilə sərgiləri keçirilir. Bretany regionunun Vannes (Vann) şəhərində “Sükutun dərinliyi” adlı sərgi çərçivəsində fotoqrafın iştirakı ilə konfrans keçirilib. Sözünü, fikirlərini fotoları vasitəsilə çatdıran R.Deqati konfransda hər bir şəklin tarixi və çəkildiyi məqamlar haqqında ətraflı məlumat verib. O, fəaliyyətində daha çox insan amilinə önəm verdiyini bildirib.



Reza Deqati Azərbaycanda çəkdiyi fotolardan da söz açıb, torpaqlarımızın otuz il sürən işğal dərdini bu şəkillər vasitəsilə beynəlxalq ictimaiyyətə çatdırdığını deyib. O, Birinci Qarabağ müharibəsi dəhşətlərinin fotolarda əksindən bəhs edərək mülki azərbaycanlıların erməni silahlı qüvvələri tərəfindən amansızcasına qətlə yetirilməsi, Xocalı soyqırımı haqqında danışıb.

Reza Deqati həmçinin Azərbaycan torpaqlarını azad etdikdən sonra oraya gedib çəkdiyi fotolar, işğal zamanı yerlə yeksan olunmuş, xarabalığa çevrilmiş Ağdam, eləcə də digər şəhər və kəndləri əks etdirən fotolardan da söz açıb. Fotolar arasında İkinci Qarabağ müharibəsində Gəncədə, Bərdədə ermənilərin qadağan olmuş bombaların qurbanı olmuş uşaqların, eləcə də Tərtərdə yeddiyaşlı övladını itirmiş atanın fəryadını əks etdirən fotolar nümayiş olunub.



Məşhur fotoqraf Azərbaycanın tolerantlıq mühitini, eləcə də multikulturalizmini də çəkdiyi şəkillərlə nümayiş etdirir. Udi kilsəsi icmasının azərbaycanlılara iftar süfrəsi açmasını əks etdirən foto maraqla qarşılanmaqla bərabər, müxtəlif dinlərin nümayəndələrinin birgə yaşamasının mümkünlüyünü təsdiqləyir.

Konfransda R.Deqati dünyanın bir sıra bölgələrindəki silahlı münaqişələrdən çəkdiyi fotoları da nümayiş etdirib, müxtəlif ölkələrdəki sərgiləri barədə danışıb.

Konfrans zalının qarşısında fotojurnalistin kitab-albomlarının satışı təşkil olunub. Ziyarətçilər sərgi zalındakı ekranda fotojurnalistin fəaliyyəti və çəkdiyi fotolar haqqında videoçarxa da baxıblar.

# Türk rejissorun filmi “Oskar”a namizəddir

Türkiyənin tanınmış kinorejissoru Nuri Bilge Ceylanın “Quru otlar üstünə” filmi Amerika Kino Sənəti Akademiyasının “Oskar” mükafatına namizədlər sırasında yer alıb.




Türkiyə kino sənayesində 15 peşəkar nümayəndənin təmsil olunduğu münsiflər heyəti ekran əsərinin “Ən yaxşı beynəlxalq film” nominasiyasında “Oskar”a namizəd göstərilməsinə qərar verib.

“Quru otlar üstünə” filmi bu ilin mayında Kann Beynəlxalq Film Festivalında nümayiş olunub və əsas rolun ifaçısı Merve Dizdara “Ən yaxşı qadın aktrisa” mükafatını qazandırıb. Maraqlı süjeti olan bu ekran əsəri Şərqi Anadolunun ucqar kəndində çalışan rəsm müəlliminin başına gələn hadisələrdən bəhs edir.

96-cı “Oskar” mükafatlarının təqdimat mərasimi 2024-cü ilin mart ayına nəzərdə tutulub.

# Çingiz Aytmatovun Azərbaycan dilində kitabının təqdimatı

Qırğız Respublikasının Azərbaycandakı Səfirliyində dünyaca məşhur yazıçı Çingiz Aytmatovun (1928-2008) 95 illik yubileyi münasibətilə Azərbaycan dilində yeni çapdan çıxmış “Dağlar yıxılanda” nəsr toplusunun təqdimatı keçirilib. Təqdimatda yazıçının oğlu, Beynəlxalq Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatov da iştirak edib.

Qırğızıstanın ölkəmizdəki səfiri Kayrat Osmonaliyev ölkələrimiz arasında dostluq münasibətləri və mədəni əlaqələrdən söz açıb, böyük ədibin yaradıcılığına Azərbaycanda göstərilən marağı yüksək qiymətləndirib.

Kitabı Azərbaycan dilinə çevirmiş yazıçı-tərcüməçi Nəriman Əbdülrəhmanlı Çingiz Aytmatovun Azərbaycanı da özünə vətən saydığını, ölkəmizdə böyük ədibin yaradıcılığının çox sevildiyini vurğulayıb.

Eldar Aytmatov da atasının Azərbaycana böyük rəğbət bəslədiyini, yeni nəşr olunan kitabın onun xatirəsinə hörmət nişanəsi olduğunu bildirib. O, tərcüməçi N.Əbdülrəhmanlı və səfir K.Osmonaliyevə Çingiz Aytmatov adına Beynəlxalq İssık-Kul Forumunun xatirə medalını təqdim edib.

Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı kitabın nəşrini Çingiz Aytmatovun 95 illiyinə, türk xalqlarının mənəvi birliyinə verilən töhfə adlandırıb.

“Qanun” nəşriyyatında çap olunmuş kitaba yazıçının sonuncu romanı –“Dağlar yıxılanda”, həmçinin “Üz-üzə” povesti və hekayələri daxil edilib.

# Qış turizmi imkanlarımız Qazaxıstanda və Rusiyada təbliğ edilib

19-20 sentyabrda Azərbaycan Turizm Bürosu tərəfindən Qazaxıstanın Almatı və Astana, Rusiyanın Yekaterinburq, Moskva və Sankt-Peterburq şəhərlərində silsilə təbliğat tədbirləri, B2B (Biznesdən biznesə) formatında görüşlər keçirilib.

Dövlət Turizm Agentliyindən verilən məlumata görə, tədbirlərin təşkilində əsas məqsəd bu ölkələrin turizm şirkətlərini Azərbaycanda qış mövsümündə təklif edilən turizm məhsulları haqqında məlumatlandırmaqdır.

Tədbirlərdə Azərbaycan Turizm Bürosu ilə birgə “Azərbaycan Hava Yolları” QSC, “Şahdağ” Turizm Mərkəzi, gəlmə turizmi üzrə ixtisaslaşmış yerli turizm şirkətləri, Bakıda və regionlarda fəaliyyət göstərən hotel və kurortlar təmsil olunublar.

Qazaxıstanın turizm sənayesi təmsilçiləri ilə görüşlər zamanı Almatı, Astana, Aktau, Aktobe şəhərlərindən Bakıya birbaşa uçuşların olmasının qarşılıqlı turist səfərlərinə töhfə verdiyi qeyd olunub.

Rusiya turizm şirkətləri ilə görüşlərdə rusiyalı turistlər tərəfindən Azərbaycanda fəaliyyət göstərən dağ-xizək kurortlarına marağın artdığı diqqətə çatdırılıb.

Qeyd edək ki, bu il hər iki ölkədən Azərbaycana səfər edənlərin sayında artım müşahidə edilir. 2023-cü ilin yanvar-avqust dövründə Qazaxıstandan 35 471 nəfər, Rusiyadan isə 426 177 nəfər Azərbaycana səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 85% və 62% çoxdur.

# Murtuza Bülbül Kreml Orkestrinin heyəti ilə konsert verəcək

Sentyabrın 30-da Moskvadakı “Zaryadye” konsert salonunun Kiçik zalında “Müəllim və yetirmələri” müəllif proqramı çərçivəsində gənc azərbaycanlı dirijor Murtuza Bülbülün idarəsilə Kreml Dövlət Orkestrinin kamera heyətinin konserti olacaq.



Kreml Dövlət Orkestrinin mətbuat xidmətinin yaydığı məlumata görə, konsertdə D.Şostakoviçin və onun ən görkəmli tələbələri sayılan G.Sviridov və Q.Qarayevin əsərləri səslənəcək. Klassik musiqisevərlər D.Şostakoviçin “Çello və fortepiano üçün sonata”sı, “Kamera orkesti üçün simfonifya”sı, G.Sviridovun “Kamera orkestri üçün Musiqi” əsəri və Q.Qarayevin “Kamera orkestri üçün III simfoniya”sını dinləyə biləcəklər.

Dünyanın görkəmli bəstəkarlarının yaradıcılığında varislik prinsipindən bəhs edən məlumatda o da diqqətə çatdırılır ki, Murtuza Bülbül Azərbaycanın məşhur musiqiçi sülaləsinin davamçısıdır. Moskva Dövlət Konservatoriyasının dosenti Vyaçeslav Valeyevin tələbəsi olan Murtuza Bülbül gənc yaşına baxmayaraq, Rusiya Milli Orkestri, Sankt-Peterburq Akademik Simfonik Orkestri, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Novosibirsk Akademik Simfonik Orkestri ilə konsertlər verib.

**Gülcahan Mirməmməd**




Olaylar, faktlar

(22–25 sentyabr)

### 118 il əvvəl...



**24 sentyabr 1905-ci ildə** Norveç İsveç Krallığından ayrılaraq müstəqil dövlət olub. İsveç-Norveç uniyası (ittifaqı) 1751-ci ildə bağlanmışdı. Həmin ittifaqadək Danimarka Krallığının nəzarəti altında olan Norveç İsveçlə uniya bağladıqdan sonra nisbi özünüidarə hüququ qazanmışdı. Maraqlıdır ki, müstəqilliyini elan edəni Norveçin ilk kralı danimarkalı VII Haakon oldu. Danimarka Norveçin ərazisi sayılan Qrenlandiyanı da öz nəzarətində saxladı.

### 115 il əvvəl...

**22 sentyabr 1908-ci ildə** Bolqarıstan Osmanlı imperiyasının tərkibindən çıxaraq müstəqilliyini elan edib. XIV əsrin sonundan Osmanlının nəzarətinə keçən Bolqarıstan 1877-1878-ci illərin Rusiya-Türkiyə müharibəsindən sonra muxtar knyazlıq statusu almışdı.

### 110 il əvvəl...

**24 sentyabr 1913-cü ildə** İrlandiya Böyük Britaniya Krallığı tərkibində muxtariyyət statusu alıb. Bununla bağlı xüsusi sənəd – “Qomrul haqqında qanun” qəbul edilib. 1949-cu ildə Cənubi İrlandiya müstəqil dövlət oldu, Şimali İrlandiya isə nisbi özünüidarə hüququ ilə Britaniyanın tərkibində qaldı.

### 91 il əvvəl...

**23 sentyabr 1932-ci ildə** Səudiyyə Ərəbistanı Krallığı yaranıb. Ərəbistan yarımadasında geniş ərazini (2,15 milyon kv km) əhatə edən Səudiyyə tayfalarının birləşmə prosesi XIX əsrin əvvəlində başlanmışdı. 1927-ci ildə İbn Səud Hicaz, Hecd və s. bölgələri birləşdirdi, beş il sonra Səudiyyə Ərəbistanı krallığ elan edildi.

### 63 il əvvəl...

**22 sentyabr 1960-cı ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Mali müstəqilliyini elan edib. Mali 1890-cı ildən Fransanın nəzarətində (Fransa Sudanı adı ilə) idi. Müstəqillik qazanandan sonra ölkədə 1992-ci ilədək hərbi diktatura mövcud olub.

### 54 il əvvəl...

**25 sentyabr 1969-cu ildə** Mərakeşin paytaxtı Rabatda müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında İslam Konfransı Təşkilatı təsis olunub. 57 dövləti birləşdirir. 2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı adlanır. Katibliyi Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir.

### 43 il əvvəl...



**22 sentyabr 1980-ci ildə** İraq-İran müharibəsi başlayıb. İraq qoşunlarının İranla sərhəddə Şatt əl-Ərəb çayını nəzarətə götürməsi müharibənin faktiki səbəblərindən idi. 8 il sürən və iki tərəfdən 1 milyondan çox insan itkisinə səbəb olan müharibə “heç-heçə” başa çatdı, iki ölkənin sərhədində 1980-ci ilədək mövcud olan status-kvo bərpa edildi.

### 34 il əvvəl...

**23 sentyabr 1989-cu ildə** Azərbaycan SSR Ali Soveti “Azərbaycan SSR-in dövlət suverenliyi haqqında” Konstitusiya qanununu qəbul edib. Sənəddə belə bir müddəa əksini tapmışdı ki, ittifaq (SSRİ) səviyyəsində qəbul olunmuş qanunvericilik aktı Azərbaycanın suverenliyinə xələl gətirərsə, onun respublika ərazisində qüvvəsi dayandırılacaq.

### 30 il əvvəl...

**24 sentyabr 1993-cü ildə** Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olub. Moskvada MDB dövlət başçılarının sammitində iştirak edən Ali Sovetin sədri, prezident səlahiyyətlərini icra edən Heydər Əliyev ölkəmizin quruma üzvlüyü barədə sənədləri imzalayıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2484
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641